# Azərbaycan xalqının öz Liderinə sevgisi, inamı, etimadı sonsuzdur



⇨ BAX: SƏH. 4

# Azərbaycanla ABŞ-nin strateji tərəfdaşlığı hər iki ölkənin prezidentlərinin siyasi iradəsi əsasında uğurla inkişaf edir



⇨ BAX: SƏH. 4

# Ölkələrimiz arasında Strateji tərəfdaşlıq region üçün böyük əhəmiyyət daşıyır

Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib



⇨ BAX: SƏH. 2




NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az

İCTİMAİ-SİYASİ QƏZET / № 49 (8993) / Çərşənbə, 8 iyul 2026-cı il


## SOCAR-ın prezidenti "PETROCI Holding"in baş direktoru ilə görüşüb



⇨ BAX: SƏH. 4

## YAP Mərkəzi Aparatında tədbir keçirilib



⇨ BAX: SƏH. 3

# Azərbaycan-ABŞ strateji tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir



⇨ BAX: SƏH. 2

## Bakı bu gün beynəlxalq gündəliyin formalaşmasında fəal iştirak edir



⇨ BAX: SƏH. 7

## Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması vacibdir




⇨ BAX: SƏH. 8

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib





⇨ BAX: SƏH. 3

## *Orta Dəhliz:* Dəyişən dünya nizamının yeni arteriyası




⇨ BAX: SƏH. 8



## *30 ilin uğuru:* Etimad və şəffaflıqla rəqəmsal əsrə yüksələn Azərbaycan auditi

⇨ BAX: SƏH. 5

## Əsəbiləşmə Rusiya, əcdadlarının əkdiyini biçirsən...



⇨ BAX: SƏH. 7




## Rəqəmsal asılılıqdan kibertəzyiqə

⇨ BAX: SƏH. 8

ANALİTİKA

# Azərbaycan-ABŞ strateji tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir

**"Son dövrdə Azərbaycan-Amerika Birləşmiş Ştatları münasibətlərinin yüksələn xətlə və uğurla inkişaf etməsi məmnunluq doğurur. Biz iki ölkə arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir, dövlətlərarası əlaqələrimizin güclənməsinə daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. Fevral ayında imzalanan və münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran Strateji Tərəfdaşlıq Xartiyasının iqtisadiyyat, enerji, bağlantılar, təhlükəsizlik kimi ənənəvi sahələrlə yanaşı, rəqəmsal transformasiya, süni intellekt və digər mühüm istiqamətlər üzrə tərəfdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyimi ifadə edirəm."**



**Dövlətimizin başçısı İlham Əliyev Prezident Donald Trampa ABŞ-ın müstəqilliyinin 250-ci ildönümü münasibətilə ünvanladığı təbrik məktubunda münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran Strateji Tərəfdaşlıq Xartiyasının iqtisadiyyat, enerji, bağlantılar, təhlükəsizlik kimi ənənəvi sahələrlə yanaşı, rəqəmsal transformasiya, süni intellekt və digər mühüm istiqamətlər üzrə tərəfdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyini ifadə etdi**

Dövlətimizin başçısı İlham Əliyev Prezident Donald Trampa ABŞ-ın müstəqilliyinin 250-ci ildönümü münasibətilə ünvanladığı təbrik məktubunda onu da qeyd edir ki, biz Sizin Cənubi Qafqazda sülh gündəliyinin təşviqi və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində qətiyyətli səylərinizi də son dərəcə yüksək qiymətləndiririk. Keçən ilin avqustun 8-də Ağ Evdə Sizin təşəbbüsünüzlə baş tutmuş tarixi üçtərəfli görüşün nəticələri regionumuzda tamamilə yeni müsbət ab-hava və vəziyyət yaratdı. Artıq Azərbaycan ilə Ermənistan sülh şəraitində yaşayır və ticarət münasibətləri qururlar. Eyni zamanda, regionda sabitliyə və rifaha xidmət edən infrastruktur layihələrinin, xüsusilə də Asiya ilə Avropa arasında alternativ, etibarlı və təhlükəsiz bağlantını təmin edəcək "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun reallaşmasına ölkənizin göstərdiyi davamlı dəstəyini xüsusi qeyd etmək istərdim.

Bu gün yeni mərhələyə daxil olan Azərbaycan-ABŞ münasibətlərinin fonunda ölkəmizin ədalətli mövqeyinə dəstəyi aydın şəkildə görürük. Dövlət başçısı İlham Əliyev cari ilin əvvəlində yerli televiziya kanallarına ənənəvi müsahibəsində 2025-ci ilin ölkəmizin həyatında hansı uğurlarla qaldığını xarakterizə edərkən bu reallığı xüsusi qeyd etmişdir ki, Azərbaycan-Amerika münasibətlərinin kontekstində ötən il tarixi il sayıla bilər. Çünki sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında bir nömrəli dövlətlə Amerikadakı anti-Azərbaycan qüvvələrin, erməni lobbisinin fəaliyyəti nəticəsində lazımi səviyyədə münasibətlər qura bilməmişdi. Azərbaycan tərəfindən belə cəhdlər dəfələrlə göstərilmişdir. Müəyyən mərhələlərdə münasibətlər müsbət istiqamətdə inkişaf edirdi. Ancaq mövcud məhdudiyyətlər, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinin davam etməsi Amerikadakı söz sahiblərinə imkan vermirdi ki, Azərbaycanla genişmiqyaslı münasibətlər qurulsun. Artıq bu məhdudiyyət də yoxdur və bunun təbii ki, iki əsas səbəbi var: birincisi, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya Prezident başda olmaq şərti ilə çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir. Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də, bizim üçün də önəmlidir.

Reallıq budur ki, cənab İlham Əliyevin ötən ilin avqust ayında ABŞ-a işgüzar səfəri iki ölkənin münasibətlərində yeni səhifə açdı. ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə tarixi sülh razılaşmasının əldə edilməsi, 907-ci düzəlişə son qoyulması istiqamətində atılan addımlar və sair kimi mühüm məqamlar iki ölkənin əlaqələrinin gələcək inkişafı barədə aydın təsəvvür yaratdı. Həmçinin həmin səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar. Cənab İlham Əliyev həmin mərasimdə bir daha bildirdi ki, 33 il davam edən sanksiyaların sonu Prezident Trampın sayəsində mümkün oldu. ABŞ Prezidentinin cənab İlham Əliyevə "Siz böyük lidersiniz" müraciəti, həmçinin Ağ Evin rəmzi açarını dövlətimizin başçısına təqdim edərək "Mən bunu nadir hallarda təqdim edirəm" söyləməsi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun, Prezidentimizə göstərilən böyük etimadın fonunda ABŞ-ın ölkəmizlə əməkdaşlığa nə qədər böyük önəm verdiyini nümayiş etdirdi. Hazırda Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Tarixi sülh razılaşmasından sonra münasibətlərdə uğurlu inkişaf diqqətdən kənarda qalmır. Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında qarşılıqlı anlaşma və əməkdaşlıq iki ölkənin strateji tərəfdaşlığı üçün güclü zəmin yaradır. Enerji təhlükəsizliyi, regional sabitlik, iqtisadi əməkdaşlıq və terrorizmə qarşı mübarizə sahələrində ortaq maraqlar liderlər səviyyəsində aparılan dialoqun səmərəliliyini və gələcəyə yönəlmiş mahiyyətini bir daha təsdiqləyir. Donald Trampın birinci prezidentliyi dövründə formalaşan qarşılıqlı etimad bu gün ikitərəfli əlaqələrin yeni mərhələyə keçidi üçün əsaslı zəmin rolunu oynayır.

Ötən il dövlət başçısı İlham Əliyevin amerakalı həmkarı ilə bir neçə dəfə görüşü oldu. Prezident İlham Əliyev bu ilin yanvarında Davos Dünya İqtisadi Forumunun 56-cı iclası çərçivəsində də cənab Donald Trampla görüşdü. Azərbaycanın ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasına təsisçi kimi qoşulması ölkəmizin beynəlxalq miqyasda sülh, dialoq və qarşılıqlı anlaşma dəyərlərinə sadiqliyinin, eyni zamanda, yüksələn xətlə inkişaf etməkdə olan Azərbaycan-ABŞ münasibətlərinin təqdimatı oldu. Bu il fevralın 19-da Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Sülh Şurasının ilk iclası keçirildi. Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak etdi. Sülh Şurasının təsisçilərindən biri kimi Azərbaycan beynəlxalq platformalarda fəal iştirak etməklə sülh gündəliyinin formalaşmasına və qlobal etimadın güclənməsinə xidmət edir.

Dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına yönəlmiş qarşılıqlı siyasi iradə ABŞ-dan verilən yüksəksəviyyəli mesajlarda da öz əksini tapır. ABŞ Prezidenti Donald Tramp dövlətimizin başçısı İlham Əliyevə bayramlarda, əlamətdar günlərdə ünvanladığı məktublarda da Azərbaycanla Amerika arasında birgə fəaliyyətin zəngin tarixə malik olduğunu, qarşıdakı illərdə əldə edə biləcəyimiz möhtəşəm məqamları səbirsizliklə gözlədiyini bildirir.

ABŞ-ın Azərbaycanla əməkdaşlığı həm təhlükəsizlik, həm də iqtisadi sahələrdə yüksək qiymətləndirməsi iki ölkə arasında münasibətlərin strateji xarakter daşıdığını ortaya qoyur. Eyni zamanda, Cənubi Qafqazda sülhün təmin olunmasına verilən önəm regional sabitlik və inkişaf üçün mühüm amil kimi çıxış edir. Bu mesaj qarşılıqlı anlaşma və etimad əsasında qurulan əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə dərin inam yaradır.

Prezident İlham Əliyevin fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən səsləndirdiyi fikirlər də Azərbaycan-ABŞ münasibətlərinin uğurlu inkişafının, bunun üçün bütün sahələrdə böyük potensialın olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyev bildirdi ki, hazırda ikitərəfli əlaqələrin çox ümidverici və fəal olan yeni mərhələsinə qədəm qoyuruq. ABŞ Vitse-prezidentinin səfəri ərəfəsində nümayəndə heyətinin gəlişi olduqca əhəmiyyətlidir. Çünki təmaslarımızın bir hissəsi biznes, sərmayə, ticarət münasibətləri və strateji gündəliyimizin tərkib hissəsi olan bir sıra digər məsələlər üzərində cəmləşib. Azərbaycana səfər etməkdən məmnunluqlarını ifadə edən bir çox nüfuzlu şirkətlərin təmsilçiləri Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olduqlarını bildirdilər. Onlar təmsil etdikləri şirkətlərin fəaliyyəti, həmçinin ölkəmizlə həyata keçirdikləri əməkdaşlıq barədə məlumat verdilər. Görüşdə şirkət təmsilçilərinin diqqət göstərdiyi mühüm məqamlardan biri Azərbaycanın 2024-cü ildə ev sahibliyi etdiyi, dünyanı Bakıya toplayan COP29 iqlim konfransı oldu. Bildirildi ki, Azərbaycana çox böyük maraq var. Hər şey iki il bundan əvvəl COP-dan başladı və COP çox uğurlu bir tədbir oldu. Prezident İlham Əliyev Azərbaycanı ziyarət edən şirkətlərin siyahısına nəzər salarkən onların bir çoxu ilə uzun illər ərzində səmərəli əməkdaşlığımızın mövcud olduğunu vurğuladı. Bildirdi ki, şirkətlərin bəziləri yenidir və bu da tamamilə təbiidir. Çünki birincisi, müstəqilliyinin erkən illərindən Azərbaycan beynəlxalq tərəfdaşlığa çox açıq idi və bir çox beynəlxalq şirkətlərlə, o cümlədən ABŞ şirkətləri ilə yaxşı təmaslar qurmuşdur. Digər tərəfdən, keçən ilin avqust ayında Vaşinqtonda mənim Prezident Trampla görüşümdən qaynaqlanan ABŞ-Azərbaycan münasibətlərinin fəal inkişaf etdiyi bu mərhələdə əməkdaşlıq etdiyimiz sahələrin diapazonunu genişləndirəcəyimiz də təbiidir. Enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq. Cənab İlham Əliyev bu əminliyi ifadə etdi ki, Amerika şirkətləri əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var.

Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ölkəmizdə rəsmi səfərdə oldu. Səfər çərçivəsində iki ölkənin əlaqələrinin gələcək inkişafında yol xəritəsi kimi dəyərləndirilən Strateji Tərəfdaşlıq Xartiyası imzalandı. Mətbuata bəyanatında "Bizim üçün dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, Vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq" söyləyən cənab İlham Əliyev bildirdi ki, Xartiyada əməkdaşlığımızın müxtəlif istiqamətləri əks olunur. Biz təhlükəsizlik və antiterror əməliyyatları məsələləri üzərində işimizi davam etdirəcəyik. Bu gün Azərbaycan öz təbii qazı ilə 16 ölkənin enerji təhlükəsizliyini təmin edir. Onların 11-i NATO-nun üzvü, ABŞ-ın müttəfiqidir. ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens isə qeyd etdi ki, ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq. ABŞ-ın iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Bununla daha təkmil dünya yaranacaq ki, insanlar bir-biri ilə vuruşmasınlar, ticarət aparsınlar. Bu, ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin özəyidir. Biz ümumi maraqlar əsasında çıxış edə və bir-birimizlə daha böyük işlər qura bilərik. Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək.

Prezident İlham Əliyevin bu ilin iyun ayının 15-də ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə təbrik məktubu da münasibətlərimizin hazırkı inkişaf səviyyəsinə işıq saldı. Bu barədə Prezidentin "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilmişdir. Məktubda qeyd edildi ki, biz Sizə Cənubi Qafqazda sülh gündəliyinin təşviqi naminə göstərdiyiniz qətiyyətə görə də minnətdarıq. Vaşinqtonda şahidliyiniz ilə imzaladığımız üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş sülh quruculuğu yolunda Sizin ardıcıl səylərinizin nəticəsidir. Eyni zamanda, biz Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək və Orta Dəhlizin bir hissəsinə çevriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRIPP) regionda dayanıqlı sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olaraq görürük. O da qeyd edildi ki, Sizinlə aramızdakı şəxsi münasibətləri, dostluğu, dərin hörmət və etimadı daim uca tutur, son bir il ərzində mehribanlıq və səmimiyyət şəraitində keçən məhsuldar görüşlərimizdən və təmaslarımızdan məmnunluq duyduğumu bildirirəm. Yüksək səviyyədə qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə münasibətlərimizin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Azərbaycan-ABŞ əlaqələrini bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnoloji və digər sahələrdə daha da inkişaf etdirmək və möhkəmləndirmək qarşılıqlı əzmimiz təqdirəlayiqdir. Bu əminlik də ifadə edildi ki, Azərbaycan ilə ABŞ arasında dostluğun və etibarlı tərəfdaşlığın dərinləşdirilməsi, səmərəli əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Münasibətlərimizə işıq salan bu kimi hadisələri, məqamları xeyli sayda davam etdirə bilərik. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan-ABŞ əlaqələrinin bütün sahələrdə uğurlu inkişafı üçün böyük potensial mövcuddur. Donald Trampın Prezident seçilməsindən ötən dövrdə iki ölkənin münasibətlərində diqqət çəkən inkişaf gələcək barədə aydın təsəvvür yaradır. Dayanıqlı inkişafda, yeni əməkdaşlıq formatlarının yaradılmasında əsas amil sülhün, təhlükəsizliyin təmin edilməsidir ki, ABŞ Prezidenti Donald Trampın tarixi sülh razılaşmasının əldə edilməsində rolu özündə bütün məqamları ehtiva edir.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

RƏSMİ

# Ölkələrimiz arasında Strateji tərəfdaşlıq region üçün böyük əhəmiyyət daşıyır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib.**

***"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki,*** Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ Prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bunun ölkələrimiz, eyni zamanda, region üçün çox önəmli olduğunu dedi.



Dövlətimizin başçısı ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfərini məmnunluqla xatırladı, həmin səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev Donald Trampla şəxsi münasibətlərinin də yüksək səviyyədə olduğunu deyərək, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında onun xüsusi rol oynadığını vurğuladı.

Stiv Deynsin ölkəmizə son səfərindən sonra tarixi hadisələrin baş verdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan-ABŞ əlaqələrinin inkişafı istiqamətində göstərdiyi səylərə görə qonağa təşəkkürünü bildirdi.

Senator Stiv Deyns də öz növbəsində son dövrlərdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini dedi, Azərbaycan Prezidentinin ötən ilin avqustunda Vaşinqtona səfərinin əlamətdar hadisə olduğunu vurğuladı.

Qonaq, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi səviyyədə mühüm rolunu qeyd etdi.

Stiv Deyns Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə əlaqədar nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Söhbət zamanı TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından əhəmiyyəti vurğulandı, Azərbaycanla ABŞ Senatı arasında dialoqun möhkəmləndirilməsi və tərəfdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

ƏMƏKDAŞLIQ

# YAP Mərkəzi Aparatında tədbir keçirilib








**İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin təşəbbüsü ilə Çin Kommunist Partiyasının (ÇKP) yaradılmasının 105-ci ildönümü münasibətilə tədbir keçirilib.**

Tədbirdə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey və səfirliyin əməkdaşları, YAP İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənən dövlətlərarası münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verdiyini söyləyən Tahir Budaqov 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyətini diqqətə çatdıraraq məqsədyönlü birgə fəaliyyətin müştərək maraqların təmininə xidmət etdiyini bildirib.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmini vurğulayıb.

Tahir Budaqov YAP nümayəndə heyətinin cari ilin 23 iyun - 2 iyul tarixlərində Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm önəm daşıdığını bildirib. O, səfər zamanı göstərilən yüksək diqqətə görə nümayəndə heyəti adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib.



YAP Sədrinin müavini zəngin və şərəfli inkişaf yolu keçən ÇKP-nin 105-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq Çin Xalq Respublikasının inkişafı naminə həyata keçirilən əzmkar fəaliyyətin bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib və dost Çin xalqına əmin-amanlıq, rifah və firavanlıq arzulayıb.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib.

Çin Kommunist Partiyasının inkişaf yolu və fəaliyyət prinsiplərindən ətraflı bəhs edən səfir ÇKP-nin Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd edib.

Səfir Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin sonuncu səfərinin də uğurlu olmasının böyük məmnunluq doğurduğunu diqqətə çatdıraraq YAP nümayəndələrinə təşəkkürünü bildirib və müvəffəqiyyətlər arzulayıb.




YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğunu nəzərə çatdırıb. O, hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğunu bildirib.

Rektor cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmini vurğulayaraq qarşıda duran vəzifələrin uğurla həyata keçiriləcəyinə əminliyini bildirib.




YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyətini qeyd edib. O, YAP nümayəndə heyətinin sonuncu səfərinin olduqca səmərəli keçdiyini bildirərək qarşılıqlı fikir və təcrübə mübadiləsinin hakim partiyalar arasında əməkdaşlığın mövcud vəziyyətinin və inkişaf perspektivlərinin dəyərləndirilməsi baxımından xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Sonda cari ilin 23 iyun-2 iyul tarixlərində Çində səfərdə olmuş partiya nümayəndələri öz təəssüratlarını bölüşüblər.

TƏDBİR

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası

**İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

İclasda YAP Sədərək rayon təşkilatının sədri Arif Mikayıl oğlu Qasımovun, Şahbuz rayon təşkilatının sədri Rizvan Təmo oğlu Məmmədovun, Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəli oğlu Vəliyevin, Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Müslüm oğlu Balaqadaşovun və Qusar rayon təşkilatının sədri David Nurəddin oğlu İbramxəlilovun təqaüd yaşına çatmaları ilə əlaqədar tutduqları vəzifədən azad olunmaları məsələsinə baxılıb və müvafiq qərarlar qəbul olunub.





YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın təşkilatlanması və inkişafında mühüm xidmətləri olan həmin şəxslərin Heydər Əliyev ideyalarına daim sadiq olduqlarını vurğulayaraq bundan sonra da Ulu Öndərin zəngin dövlətçilik irsinin gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği yolunda bilik, bacarıq və səylərini əsirgəməyəcəklərinə, həmçinin öz təcrübələri ilə rayon təşkilatlarının işinə yaxından dəstək verəcəklərinə əminliyini ifadə edib, onlara xatirə hədiyyələrini təqdim edib.










Daha sonra İlqar Süleyman oğlu İlyasovun partiyanın Qaradağ, Vüsalə Abazər qızı Əliyevanın Sədərək, Nicat Zaur oğlu Ələkbərovun Şahbuz, Zamir Sadəddin oğlu Güvəndiyevin Şəmkir, Emil Nəcəf oğlu Tağıyevin Xaçmaz və Kamran Miran oğlu Əmirovun Qusar rayon təşkilatına sədr təyin edilməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini Əli Əhmədov, İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Azər Badamov çıxış edərək namizədliyi irəli sürülən şəxslərin bu vəzifəyə layiq olduqlarını bildirib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra müvafiq qərarlar qəbul olunub.

Yeni təyin olunmuş şəxslər göstərilən etimada görə partiyanın Sədri, ölkə başçısı cənab İlham Əliyevə dərin təşəkkürlərini ifadə edərək öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün çalışacaqlarını bildiriblər.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

ŞƏRH

# Azərbaycan xalqının öz Liderinə sevgisi, inamı, etimadı sonsuzdur

**Son sorğuların nəticələrinə görə, Prezident İlham Əliyevə etimad səviyyəsi 87,7 faiz, fəaliyyətinə müsbət qiymət verənlərin payı 93,6 faiz, onu alternativsiz siyasi lider hesab edənlərin nisbəti isə 81,9 faizdir. Bu göstəricilər Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinə, milli maraqları qətiyyətlə müdafiə etməsinə, ölkənin iqtisadi və hərbi gücünün artırılmasına, Vətən müharibəsində tarixi Qələbənin və ərazi bütövlüyü ilə suverenliyin tam bərpasına, həmçinin mürəkkəb beynəlxalq şəraitdə sabitliyin qorunmasına verilən yüksək ictimai qiymətin ifadəsidir.**

Bütün bunlar göstərir ki, ölkənin uğurlu inkişafının əsasında güclü liderlik və ardıcıl inkişaf strategiyası dayanır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və nəticədə Azərbaycan nailiyyətləri, yaratdığı yeni reallıqlar və qlobal məsələlərə yanaşması ilə beynəlxalq diqqət mərkəzində olmaqla inkişaf modelini dünya miqyasında təsdiqləyir.

***Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib.***

Onun sözlərinə görə, Prezident İlham Əliyevin sistemli və ardıcıl strateji kursu Azərbaycanın hərtərəfli inkişafını təmin edir, insan amilinə və vətəndaş məmnunluğuna verilən önəm isə Prezident-xalq birliyini daha da möhkəmləndirir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyini və müstəqilliyini qoruyub möhkəmləndirib, Prezident İlham Əliyev isə bu siyasi kursu uğurla davam etdirərək ölkəni regionun lider dövlətinə çevirib, dünya siyasətində mövqeyini gücləndirib, Vətən müharibəsində qazanılan tarixi Qələbə ilə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib.

"Prezident İlham Əliyev dövlətimizin başçısı kimi ilk müsahibəsində qarşıdakı çətinliklərə hazır olduğunu, Ulu Öndər Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində ölkəni inkişaf etdirəcəyini və Azərbaycan xalqının dəstəyi ilə üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəyini bildirmişdi. Ötən illərin reallıqları bu vədlərin əməli fəaliyyətdə tam təsdiqini tapdığını göstərir.



Dövlətimizin başçısının verdiyi hər bir vədin əməli fəaliyyətdə təsdiqini tapması ötən illərin əsas reallığıdır. 2008, 2013, 2018 və 2024-cü illərdə keçirilən prezident seçkilərində qazanılan inamlı qələbələr xalqın dövlət başçısına yüksək etimadının göstəricisidir. Müstəqillik tarixində ilk dəfə ölkənin bütün ərazisində keçirilən 2024-cü il prezident seçkiləri Prezident İlham Əliyevin 2003-2023-cü illərdə verdiyi vədləri uğurla yerinə yetirdiyini bir daha nümayiş etdirdi.

Ümummilli Lider Heydər Əliyevin Prezident İlham Əliyevlə bağlı ifadə etdiyi böyük inam artıq özünü doğruldub. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə güclü ordu formalaşdırılıb, ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub, iqtisadiyyatın şaxələndirilməsi, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, regionların sosial-iqtisadi inkişafı və şəffaf, innovativ idarəetmə istiqamətində mühüm nəticələr əldə edilib", - deyə deputat əlavə edib.

V.Rəhimzadə bildirib ki, iqtisadi müstəqillik Azərbaycanın siyasi mövqeyinin möhkəmlənməsində mühüm rol oynayır. Ölkəmiz etibarlı tərəfdaş kimi beynəlxalq nüfuzunu gücləndirərək regional inkişafın aparıcı qüvvəsinə və enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Azərbaycan əlverişli coğrafi mövqeyindən səmərəli istifadə edərək müasir infrastruktur layihələri ilə ölkələri və xalqları birləşdirən körpü rolunu daha da möhkəmləndirir. Prezident İlham Əliyev də çıxışlarında yeni əməkdaşlıq körpülərinin qurulmasının vacibliyini xüsusi vurğulayır.

"Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasını, Dövlət proqramlarının və Milli Prioritetlərin nəticələrini bir yazıda tam əhatə etmək mümkün deyil. Uzun illər ərzində atılan bütün addımlar tarixi Zəfərə və suverenliyin tam bərpasına xidmət edib, hazırda isə əsas prioritet azad olunmuş ərazilərin bərpası və Böyük Qayıdış proqramının uğurla icrasıdır. Dövlətimizin başçısının rəhbərliyi ilə Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri dünya üçün nümunəvi dirçəliş modeli təqdim edir. Vətən müharibəsində qazanılan tarixi Qələbə Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq, qalib dövlət reallığını daha da möhkəmləndirəcək", - deyə deputat vurğulayıb.

Dövlətimizin başçısının regionda dayanıqlı sülhə və təhlükəsizliyə yönəlmiş siyasətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini deyən V.Rəhimzadə qeyd edib ki, Azərbaycan xalqının da öz Liderinə sevgisi, inamı, etimadı sonsuzdur. Prezident İlham Əliyevin hər zaman çıxışlarında qeyd etdiyi kimi, bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olub. Çətinliklər də, problemlər də olub, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək inkişaf və tərəqqi yolu ilə uğurla gedib.

TƏRƏFDAŞLIQ

# SOCAR-ın prezidenti "PETROCI Holding"in baş direktoru ilə görüşüb







İyulun 7-də SOCAR-ın prezidenti Rövşən Nəcəf "PETROCI Holding"in baş direktoru Fatoumata Sanoqo ilə görüşüb.

Görüşdə SOCAR və "PETROCI Holding" arasında "Baleine" neft-qaz yatağının işlənməsi layihəsi üzrə əməkdaşlıqdan məmnunluq ifadə olunub, layihə çərçivəsində görülən işlər nəzərdən keçirilib.

Söhbət zamanı tərəflər qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparıb, o cümlədən işlənmə, hasilat, neft və neft məhsullarının ticarəti, emal, rəqəmsallaşma, süni intellektin tətbiqi, insan kapitalının inkişafı və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

BANM-in rektoru Elmar Qasımov:

## İnnovasiya yönümlü layihə və yarışlardan 860 min manatdan çox vəsait əldə edilib



**"Bakı Ali Neft Məktəbinin (BANM) tələbə və müəllimləri son 1 ildə innovasiya yönümlü layihə və yarışlardan 860 min 811 manat məbləğində vəsait əldə ediblər".**

Bu barədə BANM-in rektoru Elmar Qasımov bildirib.

Rektor qeyd edib ki, BANM müəllimlərinin mentorluğu ilə tələbələrdən ibarət 40-a yaxın komanda yerli və beynəlxalq müsabiqələr və hakatonların qalibi olub: "Qalib komandalarımızın əldə etdiyi vəsaitlərin isə 570 min 900 manatı investisiyaların, 163 min 737 manatı mükafatların, 126 min 174 manatı qrantların payına düşür. Əldə olunan bu nəticələr Bakı Ali Neft Məktəbində innovasiya ekosisteminin uğurla inkişaf etdiyini, tələbə və müəllimlərin elmi-tədqiqat, sahibkarlıq və texnoloji innovasiya sahələrində yüksək potensiala malik olduqlarını bir daha nümayiş etdirir".

İQTİSADİYYAT

# Azərbaycanla ABŞ-nin strateji tərəfdaşlığı hər iki ölkənin prezidentlərinin siyasi iradəsi əsasında uğurla inkişaf edir

İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.

***İqtisadiyyat Nazirliyindən "İki sahil"ə bildirilib ki,*** görüşdə Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın hər iki ölkənin prezidentlərinin siyasi iradəsi və qarşılıqlı etimadı əsasında uğurla inkişaf etdiyi qeyd olunub.



Tərəflər arasında ticarət və investisiyaların təşviqi, enerji, süni intellekt, rəqəmsal iqtisadiyyat, kritik mineralların hasilatı və emalı, sənaye, nəqliyyat və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

Həmçinin Orta Dəhlizin və TRIPP marşrutu təşəbbüsünün beynəlxalq ticarətin inkişafı, iqtisadi inteqrasiya və regional bağlantıların gücləndirilməsində rolu vurğulanıb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində İqtisadi Dialoq mexanizminin əməkdaşlığın əsas institusional platformalarından biri olduğu bildirilib. Birgə layihələrin həyata keçirilməsinə dair yol xəritəsi ətrafında fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi perspektivləri nəzərdən keçirilib.

MÜSAHİBƏ

# 30 ilin uğuru: Etimad və şəffaflıqla rəqəmsal əsrə yüksələn Azərbaycan auditi

## BU İNKİŞAFIN DAVAMI OLARAQ QARŞIDA HANSI STRATEJİ HƏDƏFLƏR DAYANIR?

**Müasir dünyada dövlətlərin iqtisadi qüdrəti təkcə təbii sərvətlər, maliyyə imkanları və ya istehsal potensialı ilə ölçülmür. Bu gücün əsas göstəricilərindən biri iqtisadi münasibətlərdə formalaşan etimad mühitidir. Şəffaflıq, hesabatlılıq, qanunun aliliyi və məsuliyyət prinsipləri üzərində qurulan bu etimad isə güclü audit institutu olmadan mümkün deyil. Audit bu gün maliyyə hesabatlarının düzgünlüyünü təsdiqləyən mexanizmdən daha artıq məna daşıyır. O, dövlətlə biznes arasında etibarlı tərəfdaşlığın möhkəmlənməsinə, sahibkarlıq mühitinin sağlamlaşdırılmasına, investisiya cəlbediciliyinin artırılmasına və dayanıqlı iqtisadi inkişafın təmin olunmasına xidmət edən strateji institut kimi çıxış edir.**

Azərbaycan auditinin keçdiyi inkişaf yolu, müasir dövrün çağırışları, beynəlxalq audit standartlarının tətbiqi, rəqəmsallaşmanın yaratdığı yeni imkanlar, auditor peşəsinin gələcəyi və Azərbaycan Respublikası Auditorlar Palatasının qarşıdakı dövr üzrə prioritetləri barədə suallarımızı bu qurumun icraçı direktoru Səbuhi Gülməmmədova ünvanladıq.

**- Son illərdə Azərbaycanda audit peşəsinin inkişaf tempini necə qiymətləndirirsiniz? Hansı əsas yeniliklər bu sahəyə müsbət təsir göstərib?**

- Son illərdə Azərbaycanda auditor peşəsinin inkişaf tempini yüksək qiymətləndirirəm və bu peşə yeni dövrün çağırışlarına uyğun olaraq dinamik inkişaf edir. Belə ki, Auditorlar Palatası fəaliyyət göstərdiyi 30 il ərzində Azərbaycanda milli audit sistemi bərqərar olmuş, auditor xidmətlərin həcmi, əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, şəffaflığın yüksəldilməsində, ƏL/TMM-ə qarşı mübarizədə və "kölgə iqtisadiyyatı"nın azaldılmasında, yeni dövrün çağırışlarına uyğun olaraq dayanıqlı inkişafa dair hesabatlılığın təmin edilməsində və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolu əhəmiyyətli dərəcədə artmışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi islahatlar çərçivəsində ölkəmizdə şəffaflığın təmin edilməsi və daha da artırılması, maliyyə və vergi intizamının, habelə dayanıqlı inkişafa dair hesabatlılığın gücləndirilməsi, "yaşıl iqtisadiyyat" və innovasiyaların tətbiqi kontekstində audit sisteminin yenidən qurulması, onun təsirliyinin artırılması istiqamətində Auditorlar Palatası tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir.

Prezident İlham Əliyev auditi belə dəyərləndirmişdir: "Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində geniş miqyaslı proqramların həyata keçirilməsi, ölkənin qeyri-neft sektoruna investisiya axınının gücləndirilməsi, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin aparılmasında mühüm rol oynayır. İndiki mərhələdə maliyyə intizamına ciddi əməl olunması, pul vəsaitlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir və bu baxımdan da audit həmin vəzifələrin uğurla yerinə yetirilməsində ön sıralarda olmalıdır."

Bunun nəticəsidir ki, Auditorlar Palatası xarici ölkələrin 40-dan artıq audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq sazişləri, niyyət protokolları və memorandumlar imzalamışdır və hazırda bu sahədə əməkdaşlıq davam edir.

Eyni zamanda, Azərbaycan Respublikasının Auditorlar Palatası bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən 2003-cü ildən Avropanın Mühasiblər və Auditorlar Federasiyasına (EFAA), 2008-ci ildən isə Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) tam hüquqlu üzv qəbul olunmuşdur.

Habelə, son illərdə IFAC-ın müvafiq şuraları və komitələri tərəfindən nəşr etdirilmiş və hazırda qüvvədə olan Keyfiyyətə Nəzarət, Audit, Təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar toplusunun, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), "Kiçik və orta müəssisələrin auditində Beynəlxalq Audit Standartlarının tətbiqinə dair Təlimat"ın son versiyaları ölkəmizdə tətbiqi məqsədilə IFAC-ın tərcümə strategiyasına uyğun olaraq tərcümə olunaraq nəşr etdirilmiş və auditorların istifadəsinə verilmişdir.

Auditorlar Palatası ötən 30 il ərzində auditin təbliği və təşviqi istiqamətində bir çox işlər görmüş, o cümlədən auditə dair 60 kitab, ali məktəblər üçün "Audit" dərs vəsaiti, "Daxili audit" dərs vəsaiti, 11 cilddə "Audit. Qanunvericilik və normativ sənədlər" toplusu, "Sahəvi auditlərin aparılmasına dair proqramlar" hazırlamış və nəşr etdirmiş, "İqtisadiyyat və audit" jurnalını təsis etmiş, 50-yə yaxın beynəlxalq elmi-praktik konfrans, simpozium, forum və digər tədbirlər keçirmişdir.

Auditorlar Palatasının ötən illərdə qazandığı uğurlarla bərabər qarşımızda duran və icrası vacib hesab edilən perspektivlər də mövcuddur. Belə ki, Palata tərəfindən hazırlanmış 2021-2030-cu illəri əhatə edəcək auditin üçüncü inkişaf Konsepsiyası özündə auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, auditə ictimai etimadın yüksəldilməsi, qabaqcıl xarici təcrübənin daha geniş tətbiqi, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi, auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, auditor fəaliyyətində şəffaflığın artırılmasını, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf etdirilməsi, auditor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılması istiqamətlərini özündə cəmləşdirir.

Bu Konsepsiyanın məqsədi yalnız şəffaflıq, hesabatlılıq və audit sahəsində üzləşdiyimiz ciddi və bəzən də gözlənilmədən meydana çıxan çətinliklər və problemlərin həllinə reaksiya vermək yox, daha çox gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün konseptual yanaşmanı təmin etməkdir.

> ***Səbuhi Gülməmmədov:***
>
> *Əsas prioritetimiz institusional təcrübəmizi müasir texnologiyalar və beynəlxalq təcrübə ilə birləşdirərək Azərbaycan auditinin davamlı tərəqqisini və qlobal standartlara inteqrasiyasını təmin etməkdir*



Konsepsiyada ehtiva olunan əsas istiqamətlərin reallaşdırılması ölkənin qanunvericilik aktlarına müvafiq dəyişikliklərin edilməsi, zəruri tənzimləyici aktların işlənib hazırlanması və nəşri, kompleks təşkilati, təhsil, maarifləndirmə, informasiya təminatı üzrə tədbirlərin həyata keçirilməsi vasitəsilə nəzərdə tutulur.

Son illərdə ictimaiyyət arasında auditor peşəsinə iqtisadi inkişafın əsas meyarlarından biri olan etimad artmaqda davam edir ki, bu da iqtisadiyyatda şəffaflığın və hesabatlılığın təmin olunmasında həlledici rol oynayır.

Sualınızın ikinci hissəsinə gəldikdə isə qeyd etmək istəyirəm ki, rəqəmsallaşma, süni intellekt, elektron sənəd dövriyyəsi, kibertəhlükəsizlik riskləri və böyük məlumat bazalarının idarə olunması kimi yeniliklər audit sahəsinə müsbət təsir göstərir və auditor peşəsi qarşısında yeni təqdirəlayiq vəzifələr qoyur və auditorlar bunlara göstərdikləri əməli işlərlə cavab verirlər. Oxucularımızın nəzərinə çatdırmaq istəyirəm ki, Auditorlar Palatası sədrinin 2026-cı il  17 aprel tarixli 10-1/3-3-16/2026 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlərin təsdiq edilməsi haqqında " 2026-cı il 27 fevral tarixli Fərmanında nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən görüləcək işlər barədə Tədbirlər Planı" təsdiq edilmiş və həmin Tədbirlər Planında Palata tərəfindən 2026-2028-ci illəri əhatə etməklə ölkəmizdə audit peşəsinə əsas yeniliklər gətirəcək məsələlərin həlli prioritet bir istiqamət kimi qarşıya qoyulmuşdur.

**-Audit müəssisələri maliyyə intizamının və korporativ idarəetmənin gücləndirilməsinə hansı töhfələri verir?**

-Audit müəssisələri iqtisadi münasibətlərdə etimadın formalaşdırılması, maliyyə intizamının təmin edilməsi və korporativ idarəetmənin inkişaf etdirilməsi baxımından mühüm rol oynayır. Onların fəaliyyəti təkcə maliyyə hesabatlarının yoxlanılması ilə məhdudlaşmır, eyni zamanda, müəssisələrdə sağlam idarəetmə mədəniyyətinin formalaşmasına birbaşa təsir göstərir. Birincisi, audit müəssisələri maliyyə hesabatlarının etibarlılığı barədə müstəqil rəy verməklə maliyyə intizamının gücləndirilməsinə xidmət edir. Auditor yetərli və münasib audit sübutları əsasında maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim olunması barədə müstəqil rəy bildirir. Bu, investorların, kreditorların, dövlət qurumlarının və digər maraqlı tərəflərin təqdim olunan məlumatlara güvənməsini təmin edir.

İkincisi, audit daxili nəzarət sistemlərinin qiymətləndirilməsi və təkmilləşdirilməsinə töhfə verir. Auditorlar müəssisənin uçot və nəzarət mexanizmlərindəki zəiflikləri müəyyən edir, risklərin idarə olunması üzrə tövsiyələr verir. Bu, resursların səmərəli istifadəsini təmin edir və maliyyə pozuntularının qarşısını alır. Üçüncüsü, audit müəssisələri saxtakarlıq risklərinin qiymətləndirilməsi, əhəmiyyətli təhriflərin müəyyənləşdirilməsi və daxili nəzarət mühitinin gücləndirilməsi yolu ilə maliyyə pozuntularının qarşısının alınmasına mühüm töhfə verir. Müntəzəm və müstəqil yoxlamaların mövcudluğu özlüyündə maliyyə intizamsızlığına qarşı çəkindirici amil kimi çıxış edir. Korporativ idarəetmə baxımından isə audit hesabatlılıq və məsuliyyət prinsiplərini möhkəmləndirir. Müstəqil auditin nəticələri səhmdarlar, direktorlar şurası və icraedici rəhbərlik arasında məlumat asimmetriyasını azaldır, menecmentin fəaliyyətinə obyektiv qiymət verilməsinə imkan yaradır. Bununla da mülkiyyətçilərlə menecment arasında maraqların toqquşmasından irəli gələn risklər azalır və korporativ idarəetmənin effektivliyi yüksəlir. Nəticədə mülkiyyətçilərin hüquqları qorunur və qərarlar şəffaf əsaslarla qəbul edilir.

**-Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətində audit xidmətləri hansı əhəmiyyətə malikdir? Audit mədəniyyətinin formalaşdırılması və bu sahədə maarifləndirmə nə dərəcədə vacibdir?**

-Bu gün kiçik və orta sahibkarlıq subyektləri iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biridir. Onların dayanıqlı inkişafı, rəqabət qabiliyyətinin artırılması və şəffaf fəaliyyət göstərməsi baxımından audit xidmətləri mühüm əhəmiyyət daşıyır. Auditə yalnız qanunvericiliyin tələbi kimi yanaşmaq düzgün deyil. O, sahibkara biznesinə kənar və obyektiv baxış imkanı yaradır, maliyyə hesabatlarının etibarlılığını təsdiqləyir, riskləri vaxtında müəyyən etməyə və daha düzgün idarəetmə qərarları qəbul etməyə kömək edir. Audit zamanı yalnız maliyyə göstəriciləri deyil, həm də daxili nəzarət mexanizmləri, risklərin idarə olunması və biznes proseslərinin səmərəliliyi qiymətləndirilir. Bu isə resurslardan daha səmərəli istifadə olunmasına, fəaliyyətin təkmilləşdirilməsinə və gələcək inkişaf strategiyasının sağlam əsaslar üzərində qurulmasına şərait yaradır. Auditdən keçmiş maliyyə hesabatları banklar, investorlar və biznes tərəfdaşları tərəfindən daha yüksək etimadla qarşılanır. Nəticədə müəssisələrin maliyyə resurslarına çıxışı asanlaşır, investisiya cəlbediciliyi artır və bazarda etibarlı tərəfdaş kimi mövqeyi möhkəmlənir. Bu baxımdan audit mədəniyyətinin formalaşdırılması və maarifləndirmə xüsusi əhəmiyyət kəsb edir. Hələ də bəzi sahibkarlar auditi əlavə xərc və ya yalnız məcburi prosedur kimi qəbul edirlər. Halbuki audit biznesin təhlükəsizliyini, şəffaflığını və davamlı inkişafını təmin edən mühüm idarəetmə alətidir. Dövlət qurumlarının, peşəkar audit təşkilatlarının, biznes assosiasiyalarının və ali təhsil müəssisələrinin birgə həyata keçirdikləri seminarlar, təlimlər və maarifləndirici tədbirlər bu istiqamətdə mühüm rol oynayır. Ümumilikdə, auditə çəkilən vəsait xərc deyil, biznesin etibarlılığına, dayanıqlılığına və gələcəyinə qoyulan investisiya kimi qiymətləndirilməlidir.

**-Rəqəmsallaşma audit proseslərini necə dəyişdirir? Hazırda tətbiq olunan müasir texnologiyalar haqqında nə deyə bilərsiniz?**

-Rəqəmsallaşma və Dördüncü Sənaye İnqilabı Subyektlərin maliyyə-təsərrüfat fəaliyyətlərinin yoxlanılması mexanizmlərini köklü surətdə transformasiyaya məruz qoymuşdur. Ənənəvi audit metodologiyasında tətbiq olunan kağızdaşıyıcılı sənədləşmə və statistik seçmə üsulları, müasir dövrdə yerini böyükhəcmli məlumatların real vaxt rejimində davamlı analizinə buraxmışdır. Bu transformasiya audit risklərinin minimallaşdırılmasında, daxili nəzarət sistemlərinin effektivliyinin artırılmasında və audit sübutlarının etibarlılıq dərəcəsinin yüksəldilməsində mühüm rol oynayır.

**Audit prosesində tətbiq olunan fundamental rəqəmsal texnologiyalar böyük məlumatların analitikası:**

Məlumat analitikası alətləri populyasiyanın bütövlükdə (100% həcmində) tədqiqinə imkan yaradır. Bu texnologiya makro-məlumat massivlərini strukturlaşdıraraq qeyri-tipik əməliyyatları, kənarlaşmaları və mümkün qanunsuzluq (maliyyə fırıldaqçılığı) risklərini avtomatik müəyyən edir. Beləliklə, seçmə yoxlamaların gətirdiyi informasiya itkisi riski aradan qalxır.

**Süni intellekt və maşın öyrənməsi alqoritmləri:**

Süni intellekt sistemləri retrospektiv audit məlumatlarını və cari maliyyə indikatorlarını sintez edərək risk profillərini proqnozlaşdırır. Maşın öyrənməsi modelləri mürəkkəb mühasibat yazılışlarında qanunauyğunluqları aşkar edir və auditorun strateji qərar qəbul etmə (peşəkar mühakimə yürütmə) prosesini optimallaşdırır. Rutin və monoton əməliyyatların intellektual avtomatlaşdırılması insan resursunun daha yüksək analitik dəyər yaradan sahələrə yönəldilməsini təmin edir.

**Bulud arxitekturası:**

Bulud əsaslı infrastruktur həlləri auditor ilə auditi aparılan subyekt arasında təhlükəsiz məlumat mübadiləsini və məsafədən asinxron/sinxron fəaliyyəti təmin edir. Bu arxitektura xüsusilə transmilli korporasiyaların və coğrafi baxımdan diversifikasiya olunmuş holdinqlərin konsolidə edilmiş maliyyə hesabatlarının auditində əməliyyat səmərəliliyini artırır.

**Robotik proseslərin avtomatlaşdırılması:**

RPA proqram təminatı standartlaşdırılmış, təkrarlanan və alqoritmləşdirilmiş proseslərin (məsələn, fərqli sistemlərdən məlumatların çıxarılması, rekonosilyasiya/üzləşdirmə əməliyyatları və ilkin hesabat formalarının tərtibi) insan müdaxiləsi olmadan icrasını reallaşdırır. Bu isə əməliyyat xərclərini, icra müddətini və daxili insan amilindən qaynaqlanan xəta dərəcəsini sıfıra endirir.

Hazırda Auditorlar Palatası innovativ texnologiyaların tətbiqi istiqamətində Auditorun Şəxsi Kabineti sistemini yenidən qurmuş, sistem sınaq mərhələsindədir və bu mərhələ başa çatdıqdan sonra onun geniş tətbiqinə dair təqdimat keçiriləcəkdir.

Bununla yanaşı, Auditor Sertifikatlarının və İcazələrinin İdarəedilməsi Sistemi istifadəyə verilmişdir. Həmçinin sertifikatların və icazələrin QR kod vasitəsilə təqdim olunması və doğrulanması mexanizminin tətbiqi istiqamətində müvafiq işlər aparılır.

Rəqəmsal transformasiya auditin keyfiyyət standartlarının yüksəldilməsinə, şəffaflığın artırılmasına və korporativ idarəetmə prinsiplərinə uyğunluğun institusional səviyyədə gücləndirilməsinə mühüm töhfə verir. Bununla yanaşı, yeni texnoloji mühit auditor peşəsi qarşısında yeni tələblər formalaşdırır. Müasir auditor yalnız ənənəvi maliyyə və mühasibat biliklərinə deyil, eyni zamanda, məlumat savadlılığı, informasiya texnologiyalarının auditi metodologiyası və kibertəhlükəsizlik risklərinin idarə edilməsi sahələrində də müvafiq bilik və bacarıqlara malik olmalıdır. Texnoloji ekosistemin audit fəaliyyətinə inteqrasiyası auditor peşəsinin gələcək inkişaf istiqamətlərini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir.

**-Auditor peşəsinə maraq göstərən gənclər üçün hansı imkanlar yaradılır? Bu sahədə peşəkar kadr hazırlığı hansı səviyyədədir?**

- Azərbaycanda auditor peşəsinə maraq göstərən gənclər üçün son illərdə geniş imkanlar yaradılıb. Bu sahə həm yerli, həm də beynəlxalq əmək bazarında tələbatın yüksək olduğu, peşəkar inkişaf və karyera yüksəlişi baxımından perspektivli istiqamətlərdən hesab olunur. Gənclər üçün əsas imkanlar auditor şirkətlərində təcrübə proqramları, dövlət və özəl sektorda daxili audit sahəsində iş imkanları, eləcə də Auditorlar Palatasının həyata keçirdiyi layihələr, seminarlar, müsabiqələr və universitetlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan maarifləndirici tədbirlərdir. Bu təşəbbüslər gənclərin həm praktiki bilik qazanmalarına, həm də peşəyə maraqlarının artmasına xidmət edir. Peşəkar kadr hazırlığı isə beynəlxalq standartlara uyğun inkişaf etdirilir. Universitetlərdə mühasibat uçotu və audit üzrə tədris proqramları müasirləşdirilir, Auditorlar Palatası tərəfindən lisenziyalaşdırma imtahanları və ixtisasartırma təlimləri təşkil olunur. Eyni zamanda, ACCA və CIA kimi beynəlxalq sertifikatlara maraq artır və bir çox şirkətlər əməkdaşlarının bu istiqamətdə inkişafını dəstəkləyir. Bütün bunlar Azərbaycanda peşəkar auditor kadrlarının hazırlanması üçün möhkəm zəmin yaradır.

**-Beynəlxalq audit standartlarının tətbiqi Azərbaycan auditorlarının rəqabət qabiliyyətinə necə təsir edir?**

-Azərbaycan Respublikasının ərazisində Beynəlxalq Audit Standartlarının (BAS) rəsmi tətbiqinə 2010-cu il 1 yanvar tarixindən başlanılmışdır. Bu proses birdən-birə deyil, uzunmüddətli hüquqi-institusional inkişafın nəticəsi olaraq formalaşmışdır: Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il 16 sentyabr tarixində imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu ölkədə auditor fəaliyyətinin hüquqi əsaslarını yaratmış və Auditorlar Palatasının beynəlxalq əlaqələri genişləndikcə BAS-ın ölkəmizdə tətbiqinə institusional zəmin hazırlamışdır.

Bu addımın Azərbaycan auditorlarının rəqabət qabiliyyətinə təsirini bir neçə istiqamətdə özünü göstərir.

Əvvəla, metodoloji vahidlik və beynəlxalq tanınma təmin olunur. BAS dünyanın əksər ölkələrində qəbul olunmuş ümumi metodoloji çərçivəyə əsaslandığı üçün Azərbaycan auditorlarının hazırladığı hesabatlar xarici investorlar və tərəfdaşlar tərəfindən əlavə izahat tələb etmədən başa düşülür və etibar edilir.

İkincisi, hesabatların keyfiyyəti və etibarlılığı yüksəlir. Standartların tələb etdiyi risk əsaslı yanaşma, peşəkar skeptisizm və ciddi sənədləşdirmə tələbləri audit rəyinin keyfiyyətini artırır, bu isə sərmayəçilərin etimadını gücləndirir.

Üçüncüsü, beynəlxalq layihələrə və tenderlərə çıxış genişlənir. Dünya Bankı, EBRD kimi qurumlar maliyyələşdirdikləri layihələrdə adətən BAS-a uyğun audit tələb edir, bu da yerli audit şirkətlərinə həmin tenderlərdə iştirak imkanı yaradır.

Dördüncüsü, kadrların peşəkar mobilliyi artır. BAS üzrə bilik və təcrübəyə malik auditorlar üçün regional və beynəlxalq əmək bazarında iş imkanları genişlənir.

Nəhayət, kapital bazarlarına inteqrasiya asanlaşır. Xarici birjalarda listinq və ya beynəlxalq maliyyə əməliyyatları düşünən Azərbaycan şirkətləri üçün BAS-a uyğun audit rəyi ilkin şərtlərdən biridir, bu isə yerli auditorları belə əməliyyatlarda əvəzsiz tərəfdaşa çevirir.

Beləliklə, 2010-cu ildən başlayan bu proses təkcə texniki metodologiya dəyişikliyi olmayıb, həm də, Azərbaycan auditorlarının beynəlxalq peşəkar birliyin bərabərhüquqlu üzvünə çevrilməsi, yerli audit xidmətlərinin ixrac potensialının artması və ölkənin ümumi investisiya mühitinin cəlbediciliyinin yüksəlməsi üçün strateji əhəmiyyət daşımışdır

**- Auditorlar Palatası bu il fəaliyyətinin 30 illiyini qeyd edir. Geridə qalan uğurlu inkişaf yolunu nəzərə alsaq, qarşıdakı dövr üçün müəyyənləşdirilən əsas prioritetlər və strateji hədəflər hansılardır?**

-Auditorlar Palatası 2026-cı il üçün fəaliyyətini bir sıra strateji prioritetlər üzərində qurur. Bunların əsasında Prezident İlham Əliyevin fevral 2026-cı il tarixli rəqəmsal inkişafa dair Fərmanı və Rəqəmsal İnkişaf üzrə Şuranın fəaliyyəti çərçivəsində idarəetmə və nəzarət proseslərinin rəqəmsallaşdırılması dayanır. Bu istiqamətdə elektron sənəd dövriyyəsinin genişləndirilməsi, auditor sertifikatlarının QR-kodlaşdırılması və onların həqiqiliyinin onlayn yoxlanılması imkanlarının yaradılması, habelə rəqəmsal xidmətlərin əlçatanlığının artırılması nəzərdə tutulur. Paralel olaraq, audit prosedurlarının səmərəliliyinin yüksəldilməsi məqsədilə süni intellekt texnologiyalarının tədqiqi və mümkün tətbiq imkanlarının müəyyənləşdirilməsi üzərində iş aparılır.

Beynəlxalq Audit Standartlarının (BAS/ISA) praktikada düzgün tətbiqinin təmin edilməsi, bu sahədə metodiki materialların hazırlanması və auditorlara dəstək göstərilməsi də prioritetlər sırasındadır. Bununla yanaşı, çirkli pulların leqallaşdırılmasına qarşı mübarizə istiqamətində auditor təşkilatlarının və sərbəst auditorların məlumatlılığının artırılması və monitorinq mexanizmlərinin gücləndirilməsi, eləcə də keyfiyyətə nəzarət sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması davam etdirilir.

Bu il Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 ili tamam olur və Palatanın 30 illik fəaliyyət təcrübəsi kontekstində institusional inkişaf xüsusi yer tutur. Bu istiqamətdə Auditorlar Palatası sədrinin 2025-ci il 26 avqust tarixli, 10-1/3-3-25/2025 nömrəli "Azərbaycan Respublikası Auditorlar palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi barədə" Sərəncamı ilə Təşkilat Komitəsi yaradılmış və geniş Tədbirlər Planı təsdiq edilmişdir. Həmin tədbirlər sırasında "Auditorlar Palatası-30 il" adlı kitabın 2 dildə (Azərbaycan, ingilis) hazırlanması, nəşr etdirilməsi və təqdimat mərasiminin keçirilməsi, Auditorlar Palatasının 30 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın keçirilməsi, Auditorlar Palatasının keçdiyi dövr üzrə "Auditorlar Palatası-30 il" sənədli filmin hazırlanması və s. məsələlər nəzərdə tutulmuşdur. Auditorlar Palatasının ötən illərdə əldə etdiyi uğurları ilə bərabər, qarşımızda icrası vacib hesab edilən hədəflər də mövcuddur.

Hazırki hədəflərimizin və builki planımızın istiqamətlərini qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla auditin aparılmasına dair proqram təminatının əldə edilməsi (Türkiyə, Pakistan və İsrail təcrübəsi), Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi üzrə nəzəri və praktiki sertifikat proqramlarının hazırlanması və keçirilməsi, 2026-cı ilin "Auditdə Peşə Etikası İli" elan edilməsi və bu istiqamətdə görüləcək işlər, türkdilli dövlətlərin audit və mühasibat qurumları birliyinin yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi, auditdə rəqəmsallaşma və innovasiyaların tətbiqi, "Auditdə süni intellekt" Konsepsiyasının hazırlanması və tətbiqi, sertifikatların QR kod ilə verilməsi sisteminin yaradılması, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə istiqamətində işlər, haqsız rəqabətə qarşı mübarizə və s. kimi ciddi məsələlər təşkil edir.

Son dövrdə Palatanın beynəlxalq əməkdaşlıq fəaliyyəti türkdilli dövlətlər istiqamətində də genişlənib. 2026-cı ilin 25 iyun tarixində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Dövlətin və təsərrüfat subyektlərinin mənafelərinin müdaifəsində auditin rolu" mövzusunda keçirilmiş beynəlxalq konfransda Auditorlar Palatası, Türkiyənin İctimai Nəzarət, Mühasibat və Audit Standartları Təşkilatı (KGK), Qazaxıstan Auditorlar Palatası və Özbəkistan Auditorlar Palatasının nümayəndə heyətləri arasında keçirilən işgüzar görüşdə audit və mühasibatlıq sahəsində institusional əməkdaşlıq mexanizmlərinin qurulması, auditin keyfiyyətinə nəzarət, ƏL/TM-ə və haqsız rəqabətə qarşı mübarizə, habelə auditorların sertifikasiyası üzrə birgə fəaliyyət imkanları müzakirə olunub. Görüşün əsas nəticələrindən biri kimi türkdilli dövlətlərin audit və mühasibatlıq qurumlarının vahid birliyi olan Türk Dünyası Auditorlar Şurasının yaradılması istiqamətində ilkin razılıq əldə edilib. Bu təşəbbüs çərçivəsində türkdilli dövlətlərin audit qurumları arasında vahid institusional əməkdaşlıq platformasının formalaşdırılması, auditin keyfiyyətinə nəzarət sahəsində təcrübə mübadiləsi, ƏL/TM-ə qarşı mübarizədə birgə metodiki yanaşmaların işlənməsi, auditorların sertifikasiyası sahəsində qarşılıqlı tanınma imkanlarının araşdırılması və haqsız rəqabətə qarşı birgə tədbirlərin görülməsi nəzərdə tutulur. Bu əməkdaşlığın cari ilin sentyabr ayında Palatanın 30 illik yubileyi ilə bağlı tədbirdə rəsmiləşdirilməsi qarşıya qoyulan ən böyük hədəflərimizdəndir.

**- Suallarımızı ətraflı cavablandırdığınıza görə təşəkkür edirik. Eyni zamanda, Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə kollektivinizi təbrik edir, fəaliyyətinizdə yeni uğurlar arzulayırıq!**

✍ **Yaqut Ağaşahqızı, *"İki sahil"***

*Azərbaycan Respublikası Auditorlar Palatasının keçirdiyi "Auditin inkişaf mərhələləri; uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda  müsabiqəyə təqdim edilir.*

MÜNASİBƏT

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY - ELM, DİL VƏ MİLLİ BİRLİYİN 100 İLLİK SALNAMƏSİ

**2026-cı il Türk dünyası üçün sadəcə tarix deyil, ortaq keçmişimizə, dilimizə, mədəniyyətimizə və kimliyimizə açılan yüz illik möhtəşəm yubileyin tarixidir. Bu tarixin arxasında böyük bir millətin ruhu, keçmişi, həmçinin Vətən fədailərinin fədakar taleləri dayanır. 100 il əvvəl - 1926-cı ildə Bakı yalnız Birinci Türkoloji Qurultayın keçirildiyi məkan deyil, Türk dünyasının eyni soydan gələn elm fədailərinin bir yerə toplandığı tarixi və elmi mərkəz idi. O dövrdə qəbul edilən fikirlər, müzakirə olunan qərarlar böyük Türk dünyasını qırılmaz tellərlə bir-birinə bağladı. Amma bu 100 illik yol asan keçmədi. Birinci Türkoloji Qurultay bütün türk millətlərini bir araya gətirən milli-mənəvi birliyin 100 illik dastanı kimi yadda qalmaqla yanaşı, repressiyaya məruz qalan, "pantürkist" damğası vurularaq sürgün edilən elm fədailərimizin acı taleyi ilə yaddaşlara həkk olundu.**

*Birinci Türkoloji Qurultay sadəcə elmi bir hadisə deyil, Türk dünyasının tarixində böyük bir siyasi-mədəni hadisədir. O dövrün ağır ictimai-siyasi şəraitində, totalitar rejimin basqıları altında belə bir möhtəşəm məclisin məhz Bakıda toplanması Azərbaycan xalqının intellektual potensialının, onun azadlıq və milli intibah ideallarına sadiqliyinin bariz nümunəsi idi.*

**İLHAM ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti

1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən Birinci Türkoloji Qurultayda rəsmi məlumatlara görə, 131 nümayəndə, o cümlədən dünyanın müxtəlif yerlərindən - Türkiyə, SSRİ-nin türk respublikaları və muxtar vilayətlərindən (Tatarıstan MSSR, Başqırdıstan MSSR, Krım MSSR), Şimali Qafqaz və Orta Asiya regionlarından, eləcə də xarici ölkələrdən (Almaniya, Macarıstan və s.) gəlmiş görkəmli alimlər, dilçilər, tarixçilər və ictimai xadimlər iştirak edirdilər. Fuad Köprülü, Bəkir Çobanzadə, Xalid Səid Xocayev, Sergey Malov, Nikolay Aşmarin və dövrün digər məşhur türkoloqları bu nümayəndələr sırasında idilər. Qurultayda geniş müstəvidə müzakirə edilən məsələlərdən biri - ərəb əlifbasından latın qrafikasına keçid idi. Bu qərar oxuma-yazma səviyyəsini yüksəldərək maarifçilik hərəkatını sürətləndirdi. Bu gün türk dövlətlərinin böyük əksəriyyətində istifadə edilən latın qrafikası mədəni inteqrasiyanın praktik nəticəsidir. Qurultay nəticəsində türkoloji araşdırmalar pərakəndəlikdən çıxaraq sistemli bir elm sahəsinə çevrildi. Bu isə türk dilinin, tarixinin və ədəbiyyatının öyrənilməsi üçün vahid metodologiyaların təməlini qoydu. Bu gün Türk Akademiyası və digər elmi qurumlar tərəfindən aparılan tədqiqatlar məhz həmin qurultay materiallarına istinad edir. Qurultay nəticəsində Ortaq Türk Kimliyi şüuru formalaşdı. Bu isə sübut etdi ki, əslində, türk millətlərini ayıran yalnız dövlət sərhədləridir, türklərin ortaq şüuru, ortaq kimliyi, ortaq yaddaşı var. Ortaq Türk Kimliyi şüuru bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində aparılan inteqrasiya proseslərinin ideoloji təməli kimi çıxış edir. Nəinki çıxış edir, hətta bu gün də qurultayda müzakirə edilən terminologiya, lüğətçilik və ədəbi dilin saflaşdırılması problemlərinin aktuallığını qoruyur.

Müasir dövrdə ortaq terminologiyanın yaradılması istiqamətində



**Şəfəq Əliyeva,**
*AMEA Mərkəzi Elmi Kitabxanasının Rəqəmsal kitabxana və süni intellekt şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru*

görülən işlər, əslində, 1926-cı ildə qoyulmuş elmi vəzifələrin yeni dövrün tələblərinə uyğunlaşdırılmasıdır. Bu gün Türk dünyası bayram edir, zəngin mədəni irsə və minillikləri əhatə edən tarixə malik olan Azərbaycan Türkoloji Qurultayın 100 illik yubiley tədbirinə dəvət olunmuş qonaqlarını qarşılayır, türkologiyanın inkişafı istiqamətində keçirilən yığıncaqlara ev sahibliyi edir. Bunlar onu göstərir ki, bütün dünya ölkələrində gedən qloballaşma meyilləri, müasir tendensiyalar Türk dünyası millətlərinin birliyini sarsıda bilməmişdir. Hələ o dövrdə SSRİ rəhbərliyini ən çox qorxudan və narahat edən məsələ milli yaddaşın və milli şüurun oyanması idi. O dövrün çətin şərtləri altında, siyasi təzyiqlərin kölgəsində belə, öz elmini, dilini və mədəniyyətini müdafiə etmək böyük bir cəsarət tələb edirdi. Sovet İttifaqı rəhbərlərinin gözündə Birinci Türkoloji Qurultayda səslləndirilən hər məruzə, hər təklif bir mübarizə üsulu hesab olunurdu. Qurultayda iştirak edənlər bunu yaxşı anlayırdılar, gələcəkdə onları gözləyən məhrumiyyətlərdən də xəbərdar idilər. Buna baxmayaraq, milli şüur, milli yaddaş, türk həmrəyliyi uğrunda, bu tarixi hadisənin yaratdığı mənəvi yükü, məsuliyyəti və qüruru duyaraq Birinci Türkoloji Qurultayda iştirak edirdilər. Bu gün həmin qurultayın tarixi yaddaşını vərəqləyərkən sadəcə əlifba dəyişikliyi, qrammatika qaydaları deyil, milli şüur, milli birlik uğrunda mübarizə aparan elm fədailərinin acı taleyi bizi düşünməyə vadar edir. Qurultaydan sonra müəyyən edilmiş "əlifba islahatı", "terminologiya" və "türk xalqlarının yaxınlaşması" kimi istiqamətlər totalitar rejimin ideoloji hədəfinə çevrildi. Türkoloji Qurultayda iştirak edən və qurultayın qərarlarının həyata keçirilməsində rolu olan bir çox alimlər və ictimai xadimlər sonrakı illərdə repressiyanın ağır nəticələrinə məruz qaldılar.

Planlı şəkildə həyata keçirilən repressiya siyasəti, əslində, Türk dünyasının elmi yaddaşının və intellektual potensialının məhv edilməsi demək idi. Qurultayın ən parlaq simalarından biri, əslən krımlı olan və "pantürkizmdə" ittiham edilərək güllələnən Bəkir Çobanzadə, Qurultayın katibi olmuş, türk dillərinin müqayisəli qrammatikası üzrə mütəxəssis Xalid Səid Xocayev, o dövrün elm xadimlərindən olub, qurultayın hazırlanmasına böyük səy göstərən Vəli Məmmədov və digər nümayəndələr faciəvi şəkildə öldürüldülər. Hətta qurultayda iştirak edən onlarla azərbaycanlı - Hüseyn Cavid, Əhməd Cavad və başqaları da məhz "millətçi", "pantürkist" adı ilə damğalandılar.

Bəs onların günahı nə idi? Sovet dövründə dilini, soyunu, milli yaddaşını unutmamaq, milli irsin qorunması, türk dilinin qayda-qanunları barədə müzakirələr aparmaq, böyük Türk dünyasını bir araya gətirmək uğrunda çalışmaq "böyük günah" hesab olunurdu. Milli mədəniyyət dedikdə SSRİ tərkibində olan millətlərin səhnədə milli geyimdə rəqs etməsi, milli mətbəxləri başa düşülürdü. Türklərin eyni soydan olduqları, türkçülük ideologiyası haqqında fikir və mülahizələri ifadə etmək, hətta adını belə dilə gətirmək qəti qadağan idi. Milli şüuru formalaşdıran hər bir addım dərhal "millətçilik" (nasionalizm) və ya "pantürkizm" adı ilə susdurulurdu. Hətta 1950-ci illərin əvvəllərində "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanda rəsmi şəkildə qadağan edilmişdi. Səbəb kimi dastanın "feodalizmin qalıqlarını təbliğ etməsi" göstərilsə də, əslində məqsəd başqa idi. Dastanın türk ruhu, türk müdrikliyi, türk vətənpərvərliyi o dövrün rəhbərlərini narahat edirdi. Odur ki, dastanı qadağan etməklə xalqı soykökündən uzaqlaşdırmağa çalışırdılar. Sovet imperiyası yaxşı bilirdi ki, milli şüuru tamamilə yox etmək qeyri-mümkündür. Bu səbəbdən görkəmli ziyalılarımızı repressiyaya uğratdı, ən öndə gedən elm fədailərimizi aradan götürməklə, elmin, intibahın inkişafını illərlə geri qoydu.

Bir millətin varlığını, mədəniyyətini və tarixini yaşadan əsas amil ana dilidir. Görkəmli ədəbiyyatşünas, tənqidçi, pedaqoq və ictimai xadim Firidun bəy Köçərlinin təbirincə desək, "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb itməz, amma dilini alsan fövt olar, ondan bir nişan qalmaz." SSRİ dövründə bu yaxşı başa düşülür, buna uyğun olaraq dil siyasəti aparılırdı. Azərbaycan da daxil olmaqla, türk xalqlarının 1926-cı il Bakı Türkoloji Qurultayının qərarına müvafiq olaraq ərəb qrafikasından latın qrafikasına keçməsi və türk xalqlarının latın qrafikalı əlifba vasitəsilə bir-birinə yaxınlaşması - ortaq əlifba SSRİ-ni çox narahat edirdi, ona görə də 1939-cu ildə məqsədyönlü şəkildə kiril əlifbasına keçilməsi barədə qərar qəbul olundu. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, bu, millətin milli ruhunu öldürməyə kifayət etmədi, yazıya alınmayan folklorumuzda, xüsusən ailə folklorunda - layla, bayatı, nağıl və digər şifahi xalq ədəbiyyatı nümunələrimizdə milli ruhumuz, milli yaddaşımız yaşadı, nəsildən-nəslə ötürüldü.

Təsadüfi deyil ki, "Kremldə ucalan türk bayrağı" adlandırılan Heydər Əliyevin hakimiyyətə gəlişi ilə türkologiya sahəsində yeni bir mərhələ başlandı. Məhz Onun rəhbərliyi dövründə - 1969-cu ildə SSRİ məkanında ilk dəfə Bakı Dövlət Universitetində Türkologiya kafedrası yaradıldı. 1970-ci ildən isə Ulu Öndərin təşəbbüsü və dəstəyi ilə beynəlxalq "Sovet türkologiyası" elmi jurnalının nəşrinə başlanıldı. SSRİ Elmlər Akademiyası və Azərbaycan SSR Elmlər Akademiyasının birgə nəşri kimi fəaliyyətə başlayan bu jurnal qısa müddətdə türkoloji araşdırmaların elmi mərkəzinə çevrildi. 1993-cü ildən etibarən isə jurnal öz fəaliyyətini "Türkologiya" adı ilə davam etdirir.

Ulu Öndərin müəyyən etdiyi strateji kursun və onun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi fəaliyyətin məntiqi nəticəsidir ki, bu gün xalqımız Birinci Türkoloji Qurultayın 100 illiyini qeyd edir. Prezident İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixində "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) birgə təşkilatçılığı ilə ölkə daxilində və beynəlxalq səviyyədə silsilə yubiley tədbirləri həyata keçirilir. Xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasında Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı planlı şəkildə həyata keçirilən silsilə tədbirlər AMEA-nın dövlət başçısının Fərman və sərəncamlarına olan həssas mövqeyinin və dövlətçilik ənənələrinə sadiqliyinin bariz nümunəsidir. AMEA-nın Azərbaycan Respublikası Prezidentinin qərarlarına göstərdiyi bu yüksək həssaslıq elmi ictimaiyyətin dövlət siyasətinin arxasında dayandığını göstərir. Türkoloji Qurultayın 100 illiyi ilə bağlı keçirilən konfranslar, tematik müzakirələr, çap olunan monoqrafiyalar, təşkil edilən kitab sərgiləri bunu sübut edir.

Yaxınlarda AMEA Mərkəzi Elmi Kitabxanasının tərtibatında "Birinci Türkoloji Qurultay-100" adlı biblioqrafik göstərici çap olunub. Biblioqrafik göstərici Azərbaycan Respublikası Prezidentinin Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamından irəli gələn vəzifələrin icrası, eləcə də AMEA Rəyasət Heyətinin müvafiq qərarı əsasında hazırlanıb. Vəsaitdə qurultayın tarixi, onun elmi irsi və türkoloji fikrin inkişafına təsiri ilə bağlı zəngin mənbələr sistemli şəkildə bir araya gətirilib. Göstəricidə Azərbaycan, türk, rus və digər xarici dillərdə işıq üzü görmüş kitablar, monoqrafiyalar, elmi məqalələr, dövri mətbuat materialları, məcmuələrdə dərc edilmiş yazılar, avtoreferatlar, dissertasiyalar və digər biblioqrafik mənbələr öz əksini tapmışdır. Bununla yanaşı, Birinci Türkoloji Qurultayın iştirakçıları, təşkilatçıları, eləcə də qurultayın əhəmiyyəti barədə görkəmli elm, mədəniyyət və siyasi xadimlərin məqalə və çıxışları da vəsaitə daxil edilmişdir. Göstərici yalnız biblioqrafik mənbələrin siyahısını təqdim etmir, eyni zamanda Birinci Türkoloji Qurultayın öyrənilməsi istiqamətində aparılmış elmi tədqiqatların ümumi mənzərəsini əks etdirən mühüm informasiya resursu kimi çıxış edir. Bu baxımdan vəsait türkoloji araşdırmalarla məşğul olan alim, magistrant, doktorant və ümumilikdə Türk dünyasının tarixi və mədəni irsi ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur. Kitabda vəsaitin elmi məsləhətçisi, akademik İsa Həbibbəylinin "Birinci Türkoloji Qurultayın qurucuları, dərsləri və çağırışları" başlıqlı elmi məqaləsi də yer almışdır. Məqalədə qurultayın təşkil olunmasının tarixi zərurəti, onun türk xalqları arasındakı elmi əməkdaşlığın möhkəmləndirilməsində oynadığı rol, qəbul edilən qərarların türkoloji elmin inkişafına təsiri və müasir dövr üçün aktuallığı geniş şəkildə təhlil edilir. "Elm" nəşriyyatında çap olunan nəşrin elmi redaktoru texnika elmləri doktoru Hüseyn Hüseynov, tərtibçisi Əməkdar mədəniyyət işçisi Xuraman İsmayılova, redaktoru isə Biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyevadır. Türkoloji fikrin inkişafını əks etdirən məlumat bazası qismində çıxış edən bu biblioqrafiya 1926-cı ildən günümüzədək Birinci Türkoloji Qurultayla bağlı çap olunmuş fundamental tədqiqatları, kitab və məqalələri əhatə edərək, mövzu barədə dolğun təsəvvür yaradır.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin müstəsna əhəmiyyəti onun həm də Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edərək öz suverenliyini tam bərpa etdiyi tarixi bir dövrə təsadüf etməsi ilə bağlıdır. İlahi ədalət onu göstərir ki, 100 il əvvəlki qurultayda arzulanan "türk birliyi" və "güclü milli dövlət" ideologiyası bu gün həqiqətə çevrilmişdir. Azərbaycan dövləti Qarabağ Zəfəri və Şuşanın azad olunması ilə 2020-ci ilədək işğal altında olan ərazilərimizdə milli-mədəni irsimizi, toponimlərimizi və tarixi izimizi bərpa edərək vaxtilə türkdilli xalqların qurultayda müzakirə olunan əlifba və dil birliyini gerçəkləşdirdi. Əgər 1926-cı ildə Türkoloji Mərkəz Bakı idisə, 2026-cı ildə, 100 ildən sonra mədəniyyət mərkəzi Şuşa şəhəridir. Bu isə Azərbaycanın Türk dünyasının elmi-mədəni həyatındakı aparıcı rolunu göstərir.

Bu gün AMEA Mərkəzi Elmi Kitabxanasının Rəqəmsal kitabxana və süni intellekt şöbəsi olaraq zəngin mənəvi irsimizi yaşatmaq, folklorumuzu, dastanlarımızı gələcək nəsillərə və dünyaya çatdırmaq bizim ümdə vəzifəmizdir. Gələcəkdə bütün türk dövlətlərinin kitabxanalarını, muzeylərini və arxivlərini vahid rəqəmsal məkanda birləşdirərək Ortaq Türk Rəqəmsal Kitabxana, Muzey və Arxivini yaratmaqla, türklərin zəngin irsini rəqəmsal dövrün dilinə çevirməklə Böyük Türk dünyasının elmi potensialını beynəlxalq məkanda görünən və əlçatan etmək, milli irsi yaşatmaq olar. Unutmayaq ki, milləti yaşadan onun yaddaşıdır.

HƏMSÖHBƏT

# Tarixi missiyadan "Türk Dünyası Həftəsi"nə

***Bundan tam bir əsr əvvəl paytaxtımız dünya türkologiyasının mərkəzinə çevrilərək, türk xalqlarının ortaq əlifba, dil, tarix və mədəniyyət vizyonunu müəyyən edən Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdi. Bu unikal elmi forum və böyük mənəvi irsin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 22 oktyabr 2025-ci il tarixli xüsusi Sərəncam imzalamışdır. Bu mühüm Sərəncamdan irəli gələrək ölkəmizdə reallaşan və möhtəşəm "Xankəndi Bəyannaməsi" ilə taclanan "Türk Dünyası Həftəsi" yüz il əvvəlki idealların bu gün də diri olduğunu və gələcəyə işıq saldığını bir daha sübut etdi.***

***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılla həm 1926-cı il qurultayının tarixi missiyasını, həm də Prezident Sərəncamı əsasında keçirilən yubiley tədbirlərinin müasir türkologiyaya töhfələrini müzakirə etdik.***

**- Zülfiyyə xanım, sizcə, 1926-cı il qurultayını tarixdə bu qədər unudulmaz edən və bugünkü Türk Dövlətləri Təşkilatının (TDT) yaranmasına qədər gətirib çıxaran o əsas türklük ruhu və fədakarlıq faktoru nə idi? Tarix bu böyük addımı öz yaddaşında necə qorudu?**

- Məlumdur ki, 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultay keçirilərkən çox mürəkkəb bir siyasi dövr idi və o qurultay iştirakçılarının, təşkilatçılarının (məsələn, bəzi böyük mütəfəkkirlərimizin) taleyi sonradan çox ağırlı, repressiyalarla dolu oldu. Lakin onlar canları bahasına başa gəlsə də, ortaq əlifba (Latın qrafikasına keçid) və dil birliyi qərarını məhz Bakıda dünyaya elan etdilər. 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultayı unudulmaz edən əsas amil onun yalnız elmi toplantı deyil, türk xalqlarının mənəvi özünüdərk hadisəsi olması idi. O dövrdə siyasi mühit son dərəcə mürəkkəb idi. Lakin alimlər, mütəfəkkirlər və ziyalılar türk xalqlarının gələcəyini dil, əlifba və mədəni birlikdə görürdülər. Onların "türklük ruhu" şəxsi təhlükəsizlikdən daha böyük ideala - ortaq yaddaşa, ortaq yazıya və ortaq mədəni gələcəyə xidmət edirdi. Qurultaydan sonra iştirakçıların bir çoxunun repressiyaya məruz qalması bu fədakarlığın nə qədər ağır bədəl hesabına başa gəldiyini göstərdi. Lakin tarix bu addımı qorudu: çünki ideyalar fiziki olaraq susdurulan insanlardan daha uzunömürlü oldu. 1926-cı ildə Bakıda səslənən ortaq əlifba və dil birliyi fikri bu gün Türk Dövlətləri Təşkilatının mənəvi-siyasi əsaslarından biri kimi yenidən yaşayır.

**- Dediyiniz kimi, 100 il əvvəl müzakirə edilən mövzular bu gün yenidən aktuallaşıb. O dövrdə ən böyük hədəf ortaq bir latın əlifbasına keçid idi. Bu gün, yəni 2026-cı ildə, "Türk Dünyası Həftəsi"ndə yenidən 34 hərfdən ibarət Ortaq Türk Əlifbası rəsmi olaraq masa üzərindədir. Tarixi paralellər aparsaq, 100 il əvvəl yarımçıq qalan və ya qarşısı kəsilən bu prosesi bu gün tamamlamaq üçün elmi və siyasi zəmin nə dərəcədə hazırdır?**

- 100 il əvvəl əsas hədəf ərəb qrafikasından latın qrafikasına keçid və türk xalqları arasında yazı yaxınlığının yaradılması idi. Bu proses sonradan repressiyalar və siyasi qərarlarla dayandırıldı, 1939-cu ildən kiril qrafikasına keçid türk xalqları arasında yazı birliyini zəiflətdi. Bu gün isə vəziyyət tamamilə fərqlidir: müstəqil türk dövlətləri var, TDT kimi siyasi platforma mövcuddur, Türk Akademiyası və dil qurumları ortaq elmi müzakirələr aparır. 2024-cü ilin sentyabr ayında üçüncü iclasdan sonra Bakıdan dünyaya elan olunan 34 hərfdən ibarət Ortaq Türk Əlifbası təklifi də məhz bu tarixi davamlılığın nəticəsidir. Elmi zəmin böyük ölçüdə hazırdır, siyasi irada isə əvvəlki dövrlə müqayisədə daha əlverişlidir. Əsas məsələ bu ideyanı tələsik inzibati qərar kimi deyil, mərhələli şəkildə - təhsil, nəşriyyat, rəqəmsal texnologiya və terminologiya sahələrində uyğunlaşdırmaqdır.

**- Tədbirlər çərçivəsində beynəlxalq konfranslarla yanaşı, xüsusi kitab nəşrləri və arxiv sərgiləri də təşkil olunur. 100 illik yubiley çərçivəsində üzə çıxarılan, bəlkə də indiyə qədər geniş auditoriyaya məlum olmayan hansı tarixi sənədlər və ya faktlar bu həftə ərzində türkoloji aləmə təqdim olundu? Bu nəşrlər milli dillərimizin və mənəvi dəyərlərimizin qorunmasına necə xidmət edəcək?**



- Bəli, yubiley tədbirlərində arxiv materiallarının, xüsusi nəşrlərin və elmi topluların təqdim olunması çox mühüm hadisədir. Çünki Birinci Türkoloji Qurultay uzun illər yalnız tarixi fakt kimi deyil, həm də repressiya yaddaşı kimi qapalı qalmışdı. Bu gün həmin sənədlərin üzə çıxarılması qurultayın görünməyən tərəflərini - iştirakçıların məruzələrini, təşkilati yazışmaları, əlifba müzakirələrini, repressiyaya məruz qalan alimlərin fəaliyyətini yenidən elmi dövriyyəyə gətirir. Bu nəşrlər milli dillərimizin qorunmasına iki istiqamətdə xidmət edir: birincisi, tarixi yaddaşı bərpa edir; ikincisi, müasir türkoloji tədqiqatlar üçün etibarlı mənbə bazası yaradır. Dil yalnız ünsiyyət vasitəsi deyil, xalqın mənəvi kimliyidir. Ona görə də bu sənədlər həm elmi, həm də milli-mənəvi baxımdan böyük əhəmiyyət daşıyır.

**- Ən çox diqqət çəkən məqamlardan biri gənclərin türk ruhunda tərbiyəsidir. Qurultayda gənc alimlərin və tələbələrin yaşlı nəsillə sintezi qurulur. Bəs real olaraq, türk coğrafiyasındakı universitetlər arasında tələbə mübadiləsi, ortaq dərsliklər və ya gənclərin rəqəmsal media platformalarında bir-biri ilə inteqrasiyası üçün hansı konkret qərarlar gözlənilmək üzrədir?**

- Gənclərin türk ruhunda tərbiyəsi bu gün yalnız şüar səviyyəsində qalmamalıdır. Bunun üçün konkret mexanizmlər lazımdır. Türk dövlətlərinin universitetləri arasında tələbə və müəllim mübadiləsinin genişləndirilməsi, ortaq türk tarixi, ortaq ədəbiyyat və ortaq mədəniyyət dərsliklərinin hazırlanması, birgə yay məktəblərinin və gənc türkoloqlar forumlarının keçirilməsi vacibdir. Rəqəmsal platformalarda isə ortaq elektron kitabxanalar, türk dilləri üzrə açıq dərs resursları, terminoloji bazalar və tələbələr üçün birgə media layihələri yaradılmalıdır. Gənclər bir-birini yalnız rəsmi tədbirlərdə deyil, gündəlik elmi, mədəni və rəqəmsal ünsiyyətdə tanımalıdırlar. 1926-cı ildə alimlər Türk dünyasının gələcəyini əlifba və dildə görürdülərsə, 2026-cı ildə bu gələcək həm də universitetlərdə, rəqəmsal platformalarda və gənclərin ortaq düşüncə məkanında formalaşmalıdır.

**- Zülfiyyə xanım, bütövlükdə baxsaq, Birinci Türkoloji Qurultayın 100 illik irsi və bu çərçivədə keçirilən "Türk Dünyası Həftəsi" bu gün türkologiya elmi və türk dünyasının birliyi üçün nə ifadə edir?**

- Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə 2026-cı il iyunun 29-dan iyulun 3-dək Bakı və Xankəndidə keçirilən "Türk Dünyası Həftəsi" türk xalqlarının ortaq elmi, mədəni və mənəvi dəyərlərinin beynəlxalq səviyyədə müzakirəsinə həsr olunmuş mühüm platformaya çevrildi. Tədbir çərçivəsində Türk dünyasının müxtəlif ölkələrindən alimlər, dövlət nümayəndələri, mədəniyyət xadimləri və beynəlxalq təşkilatların təmsilçiləri bir araya gələrək ortaq dil, tarix, ədəbiyyat, mədəni irs və inteqrasiya məsələlərini geniş şəkildə müzakirə etdilər. Bu möhtəşəm həftənin elmi və siyasi zirvə nöqtəsi isə azad Xankəndidə qəbul edilən və Türk dünyasının gələcək yol xəritəsini müəyyənləşdirən tarixi "Xankəndi Bəyannaməsi" oldu. Bir həftə ərzində təşkil olunan plenar iclaslar, panel müzakirələri və bu Bəyannamədə əksini tapan bəndlər Birinci Türkoloji Qurultayın ideyalarının müasir dövrdə aktuallığını bir daha nümayiş etdirdi. Bir həftə ərzində təşkil olunan plenar iclaslar, beynəlxalq elmi konfranslar, panel müzakirələri, seminarlar və mədəni proqramlar Birinci Türkoloji Qurultayın ideyalarının müasir dövrdə aktuallığını bir daha nümayiş etdirdi. Xüsusilə ortaq türk mədəni irsinin qorunması, türkdilli xalqlar arasında elmi əməkdaşlığın genişləndirilməsi, dil siyasəti və ortaq əlifba məsələləri tədbirin əsas müzakirə istiqamətləri təşkil etdi. 21 ölkədən 120-dən çox xarici elm adamının iştirak etdiyi "Türk Dünyası Həftəsi" və həftə çərçivəsində qəbul olunan tarixi Bəyannamə göstərdi ki, 1926-cı ildə əsası qoyulan türkoloji həmrəylik ideyaları bu gün də öz əhəmiyyətini qoruyur və yeni geosiyasi şəraitdə türk dövlətləri arasında elm, təhsil və mədəni inteqrasiyanın inkişafına mühüm töhfə verir. Bu baxımdan tədbir yalnız yubiley xarakteri daşımır, həm də gələcək türkoloji tədqiqatların və ortaq layihələrin inkişafı üçün mühüm elmi platforma rolunu oynayır.

**- 100 illik tariximizə, ortaq dil və mədəniyyət bağlarımıza yönəlmiş bu maraqlı söhbət və ayırdığınız zaman üçün çox sağ olun.**

- Mən də sizə təşəkkür edirəm, çox xoş idi. Araşdırmalarınızda və yaradıcılığınızda müvəffəqiyyətlər!

**Güntac Şahməmmədli,**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı*

BAXIŞ BUCAĞI

# Əsəbiləşmə Rusiya, əcdadlarının əkdiyini biçirsən...

**Mübaliğəsiz demək olar ki, Ermənistanda 7 iyun parlament seçkiləri ərəfəsində və seçkilərdən dərhal sonra Rusiya ilə onun keçmiş vassalı arasında siyasi gərginliyin kulminasiya nöqtəsinə yaxınlaşması beynəlxalq gündəmi zəbt edən əsas hadisələr sırasında yer almaqdadır. Xüsusilə parlament seçkilərində fəaliyyətdə olan baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi Qərbyönümlü "Vətəndaş Müqaviləsi" Partiyasının Ermənistanın sabiq ağası tərəfindən idarə olunması qətiyyən şübhə doğurmayan siyasi rəqibləri üzərində inamlı qələbəsindən sonra Rusiya bu Cənubi Qafqaz ölkəsinə qarşı iqtisadi təzyiq mexanizmlərini işə salmağa başlayıb.**



Buna cavab olaraq hazırkı Paşinyan hökumətində faktiki olaraq ikinci şəxs statusunu daşıyan parlamentin sədri Alen Simonyanın erməni jurnalistlərlə söhbəti zamanı Rusiyanın ölkəsindən bir sıra kənd təsərrüfatı məhsullarının idxalına tətbiq etdiyi məhdudiyyətləri nəzərdə tutaraq "Biz ölkənin azadlığını çiyələyə dəyişməyəcəyik. Azadlığın qiyməti çiyələk, badımcan və ya xiyar ola bilməz" deməsi, həmçinin digər yüksək çinli yanların biri-birinin ardınca səsləndirdikləri anti-Rusiya ruhlu bəyanatlar və açıqlamalar rəsmi Moskvanı əməlli-başlı cin atına mindirib. Bu məqamda ortaya haqlı sual çıxır: təkcə bəyanatlar və açıqlamalarmı? Təbii ki, yox. Bu bəyanatların və açıqlamaların hər birinin arxasında Rusiyanın siyasi, diplomatik və hərbi rəhbərliyini nəinki qıcıqlandıran, hətta hiddətləndirən davranışlar özünü açıq-aşkar büruzə verməkdədir.

Gəlin, bütün bunlarla bağlı son illərin statistikasına bir daha qısa nəzər salaq. Əvvəlcə Paşinyan və ətrafı İkinci Qarabağ müharibəsi zamanı Hayastana hərbi yardım göstərməməsini bəhanə edərək üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Ermənistanda keçirilməsi nəzərdə tutulan hərbi təlimlərinə ev sahibliyindən boyun qaçırdı. Bununla ürəyi soyumayan rəsmi İrəvan özünün Rusiyanın dominantlıq etdiyi bu hərbi-siyasi ittifaqdakı nümayəndəsini də geri çağırdı və ümumiyyətlə, KTMT-nin təlimlərində iştirakdan birdəfəlik imtina etdi. Daha sonra isə Paşinyan hökuməti bir qədər də irəli gedərək özünün əzəli ağası ilə bütün körpüləri yandırmaq yolunu seçdi. Yəqin ki, diqqətli oxucularımız Ermənistanın baş naziri Nikol Paşinyanın İtaliyanın "La Repubblika" qəzetinə müsahibəsində səsləndirdiyi siyasi partlayış effekti doğuran aşağıdakı fikirləri və bundan sonra cərəyan edən hadisələri unutmayıblar: "Müşahidələrimiz onu deməyə əsas verir ki, bir gün, bir ay və ya bir il sonra Rusiyanın Cənubi Qafqazı sadəcə olaraq tərk etdiyini görəcəyik... Rusiya özü atdığı və ya atmadığı addımlara görə bölgədən gedir. Hansı səbəblərdən? Biz bilmirik. Mən bunun səbəblərini təxmin edə bilərdim, amma indi etməyəcəyəm. Bəzi proseslər bizi elə bir fikrə gətirib çıxarır ki, bir gün sadəcə ayılıb Rusiyanın burada olmadığını görəcəyik..."

Oxu atıb yayı gizlətməyə çalışan Paşinyan müsahibəsində bilərəkdən, ya bilməyərəkdən söylədiyi sonrakı mülahizələrlə "Hansı səbəblərdən" sualına bir növ öz məntiqi ilə aydınlıq gətirmiş olur: "Ermənistanın təhlükəsizlik arxitekturası 99,99 faiz Rusiya ilə bağlı olub, həmçinin silah və sursat alınması da buraya daxildir. Amma bu gün vəziyyət elədir ki, Rusiyanın özünün silaha, sursata ehtyacı var. Aydındır ki, Rusiya Federasiyası istəsə də Ermənistanın təhlükəsizlik ehtiyaclarını təmin edə bilməz. Yəni, bu göstərir ki, təhlükəsizlik sferasında yalnız bir yerdən asılı olmaq və ya ona bağlanmaq özü-özlüyündə strateji səhvdir". Bax, burada, necə deyərlər, xoruzun qıpqırmızı quyruğu görünür. Diplomatik dildən adi danışıq dilinə tərcümə etsək bu fikir məşhur meyxanada deyildiyi kimi, belə başa düşülə bilər: "Tı kto takoy, davay dosvidaniya..." Hətta onu belə də anlamaq mümkündür: "Bugünkü Rusiya artıq batmaqda olan gəmini xatırladır və biz bu gəmidə olub onunla birlikdə boğulmaq istəmirik." Yəni, xəyanətkarlıqda, "su içdiyi qaba tüpürməkdə" tayı-bərabəri olmayan erməni xislətinə malik Paşinyan bununla həm də onu demək istəyirdi ki, nə qədər ki, Rusiya Ermənistanın təhlükəsizlik arxitekturasını 99,99 faiz təmin edirdi Cənubi Qafqazda qala bilərdi, indi isə "öz başının milçəyini qova bilməyən", bu səbəbdən də artıq Hayastana lazım olmayan keçmiş supergüc bu regionu tərk etməlidir. Bu qədər açıq-aşkar və bu qədər konkret...

Təbii ki, bu tipli bəyanatlar və açıqlamalar, eyni zamanda, Ermənistanın üzvü olduğu, faktiki olaraq Rusiyanın rəhbərlik etdiyi KTMT-nin təlimlərini pozmasına rəğmən qəflətən özünün 200 illik ağasının razılığını almadan onun bir nömrəli düşməni olan NATO-ya üz tutması rəsmi Moskva tərəfindən susqunluqla qarşılana bilməzdi. Söhbət NATO-nun aparıcı qüvvəsinin -Birləşmiş Ştatlar ordusunun de-fakto həmin vaxtadək Rusiyanın forpostu kimi tanınan Hayastana gətirilməsindən və burada sentyabrın 11-də, yəni beynəlxalq terrorizmlə mübarizə günündə başlayan və on gün davam edən ABŞ-Ermənistan birgə hərbi təlimlərindən gedir. Şübhəsiz, bu kimi olaylara, o cümlədən Rusiya-Ukrayna müharibəsi başlayan gündən etibarən bir müddət "əzəli müttəfiqinin" yanında olan Ermənistanın baş naziri Nikol Paşinyanın birdən-birə öz siyasi kursunu 180 dərəcə bucaq altında dəyişib Ukraynaya ilk dəfə humanitar yardım adı altında nəsə göndərməsinə, hətta keçmiş həyat yoldaşı Anna Akopyanı birinci ledilərin sammitində iştirak və çıxış etmək üçün Kiyevə yollamasına, İrəvanda rusiyalı jurnalistləri casus adı ilə həbs etdirməsinə və digər "xəyanətkar davranışlarına" qarşı tərəfin kəskin reaksiya verməsinin səbəbi başadüşüləndir.

Həmin olaylara və rəsmi İrəvanın sonrakı qeyri-adekvat davranışlarına Rusiya tərəfinin xarici işlər naziri Sergey Lavrovun, Prezidentin mətbuat katibi Dmitri Peskovun və Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın dili ilə təmkinli cavab verməyə çalışsa da (hərçənd onlar şərhlərində nə qədər korrekt olmağa cəhd etsələr də əsəbilik, pərtlik hər kəlmələrində özünü büruzə verir) onun təbliğat ruporlarının-politoloqların, jurnalistlərin, siyasi şərhçilərin, ictimai-siyasi xadimlərin keçmiş vassallarının xəyanətkar davranışlarına münasibətləri son dərəcə təhqiramiz, aşağılayıcı, alçaldıcı, hətta hədə-qorxu, təhdid dolu fikirlərlə müşayiət olunmaqdadır. Məsələn, tanınmış hərbi və siyasi analitik Yevgeni Mixaylov o zaman ABŞ-Ermənistan birgə hərbi təlimlərini Rusiyaya qarşı açıq çağırış kimi dəyərləndirərək bildirmişdi: "Rusiya Federasiyası yüz ildən çoxdur ki, həm erməni xalqının, həm də Ermənistan dövlətçiliyinin təhlükəsizliyinin zəmanətçisidir. Düşünürəm ki, KTMT üzvü olan bir ölkənin amerikalılarla birgə təlimlər keçirərək Rusiyaya bu qədər xəyanətkar zərbə endirməyə haqqı yox idi...Ermənilərin Qarabağdakı Rusiya sülhməramlılarına qarşı təxribatı, Rusiyanın Gümrüdəki hərbi bazası önündə mitinqi, Ermənistan baş nazirinin xanımı Anna Akopyanın Kiyevə səfəri, indi isə biz ABŞ-la təlimləri görürük. Fikrimcə, rəsmi Moskva İrəvanın bu addımlarından lazımi nəticəni çıxarmalıdır."

Bax, belə! İşğalçı ölkədə son parlament seçkilərindən sonra Ermənistan hakimiyyətinin 3-4 il əvvəlki davranışlarını və qarşı tərəfin buna hədə-qorxu, təhdid dolu ritorikalar ilə cavabını bir daha xatırlatmağımız təsadüfi deyil. Məsələ bundadır ki, Rusiya siyasi elitasının keçmiş vassalına qarşı həmin ritorikası Ermənistandakı son seçkilərdən sonra daha aqressiv xarakter alıb. Səbəbi aydındır. Axı, bir vaxtlar Kremlin əsas təbliğat ruporlarından olan Marqarita Simonyanın bəyan etdiyi "Bizim Paşinyanla ümumi heç nəyimiz ola bilməz. Və biz (Rusiya) hər şey etməliyik ki, Ermənistanda hakimiyyətə "normal adamlar" gəlsin..." məqsədinə nail olunmayıb. Əksinə, parlament seçkilərində Paşinyanın qələbəsindən sonra keçmiş vassal əvvəlki ağasını daha kəskin davranışları ilə qıcıqlandırmaqda davam edir. Məhz bu səbəbdən son günlər demək olar ki, Rusiyanın bütün ictimai-siyasi, hərbi, diplomatik dairələri, mediası səhərdən axşamadək ermənilərin xəyanətindən, xilaskarlarının kürəyinə xaincəsinə xəncər saplamasından və digər antibəşəri xislətlərindən yana-yana bəhs edirlər. Hətta ən təmkinli siyasətçilər belə bu zaman əsəblərini cilovlaya bilmir, bu xain toplumun əməllərindən yana-yana, odlana-odlana söz açırlar. Bu günlərdə, daha dəqiq desək, iyunun 15-də işğalçı dövlətin Müdafiə Nazirliyinin NATO-nun üzvü olan ABŞ, Fransa və Yunanıstanın Ermənistanla birlikdə bu ölkədə "Qartal Tərəfdaşı 2026" adlı hərbi təlim keçirəcəkləri barədə yaydığı məlumat Rusiyanın ictimai-siyasi və hərbi dairələrində sözlə ifadə oluna bilməyəcək dərəcədə hiddət doğurub.

Bu məqamda zaman-zaman xain, satqın, vəhşi erməni toplumunu qoynunda bəsləyənlərə tarixi həqiqətləri xatırladaraq demək istəyirik: Əsəbləşimə, Rusiya, bu gün əcdadlarının vaxtilə bizim Cənubi Qafqazımızda (bəli, məhz bizim!) əkdikləri zəhərli toxumun "məhsulunu" biçirsən! Etiraz edib deyə bilərsiniz ki, daim özünü bizə sədaqətli, sadiq köpək kimi göstərən xain hayları yaxşı tanımamışıq. Onların bu dərəcədə xəyanətkar, rəzil, "çörəyi dizinin üstündə olan" vəhşi toplum olduğunu bilməmişik. Bu iddialarla qətiyyən razılaşa bilmərik. Axı, sizin dahi şəxsiyyətləriniz, görkəmli mütəfəkkirləriniz, hətta bu vəhşi, qaniçən toplumun vaxtilə Türkiyədən və İrandan Azərbaycan ərazilərinə köçürülməsinə rəhbərlik etmiş diplomatlarınız, sərkərdələriniz zaman-zaman erməni xislətini tam çılpaqlığı ilə açıb ortaya qoyublar.

**"Sən qulsan, sən oğrusan, sən qorxaqsan, sən ermənisən."** Haylara bu "diaqnozu" bütün dünyada sevilən dahi şairiniz Aleksandr Puşkin qoyub. **"Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadırlar ki, bir neçə il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpağımızdır."** Bu sitat isə İrandan ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinə rəhbərlik etmiş tanınmış diplomat və yazıçınız Aleksandr Qriboyedovun Rusiya imperatoruna məktubundan görürülüb. **"11-12-mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını əksərən öz məşum planları məqsədi ilə qazılmış xəndəklərə atırdılar. Mənim yavərim iki yüz belə xəndək saymış və cinayətlərin üstünü açmışdı."** Bu tükürpədici cümlələr Rusiya ordusunun generalı L.Odişelidzenin hərbi komandanlığa 1915-ci il tarixli raportundandır. **"Ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onları özgə evinə buraxmadıqda, yaxud hər hansı bir hiylələrinin üstünü açdıqda, ya da oğrularını məhkəməyə verdikdə təkcə özləri hay-küy qoparmırlar, həm də özgə xalqdan olan, səfeh, yaxud satqın adamları da hay-küy qoparmağa məcbur edirlər."** Sizin görkəmli səyyahınız və tədqiqatçınız V.Veliçko keçmiş vassalınızı belə xarakterizə edib. **"Ermənilərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizələrinin adları harada həkk edilib? Heç yerdə!"** Bu fikir isə vəhşi erməni toplumunun xislətinə yaxından bələd olan diplomatınız Mayevskiyə məxsusdur.

*Yenə sadalayaqmı? Zənnimizcə, kifayərdir. Bir sözlə, nə kükrə, nə coş, nə də əsəbiləş, Rusiya! Bütün bunları, yəni, keçmiş nökərinin bugünkü cümlə xəyanətlərini tarixin növbəti ironiyası kimi qəbul et!..*

✍ **Əhməd Qurbanoğlu,**
***"İki sahil"***

---

AÇIQLAMA

# Bakı bu gün beynəlxalq gündəliyin formalaşmasında fəal iştirak edir

**Azərbaycanın sülh diplomatiyası çağdaş dövrümüzün ən uğurlu nümunələrindən biri kimi öyrənilir. Sülh diplomatiyası bu gün praqmatik, qlobal miqyasda, regionda baş verən geosiyasi proseslərin, beynəlxalq münasibətlərin transformasiyasının, əsas trendlərin dərin təhlilinə əsaslanan peşəkarlıqla güclü reputasiya qazanıb.**

Azərbaycanla Ermənistan arasında sülhün təşəbbüskarı və təminatçısı Azərbaycandır. Bakı Azərbaycan və Ermənistan arasında 30 ildən çox davam edən münaqişənin ardından regionda davamlı sülhün bərqərar olması, əməkdaşlıq münasibətlərinin genişləndirilməsi istiqamətində tarixi addımlar atır. Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, uğurlu diplomatiyası sayəsində başladılan sülh prosesi regionda sabitlik, qarşılıqlı anlaşma və iqtisadi inkişaf üçün yeni imkanlar yaradır. Ölkəmizin başçısının uzun illərdən bəri sülh, dialoq və qarşılıqlı anlaşmanın təşəbbüskarlarından və fəal təşviqatçılarından biri kimi çıxış etməsi sülh şəraitində yaşamağın bütün insanların, dünya xalqlarının müqəddəs haqqı olduğunu bir daha təsdiq edir.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ölkəmizə səfəri çərçivəsində iyulun 1-də Prezident İlham Əliyevlə mətbuata birgə bəyanatında bildirib: "İcazə verin, Ermənistanla tarixi sülh müqaviləsini başlatmağınız münasibətilə Sizi təbrik edim. Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Avropa İttifaqı bu prosesi qəti şəkildə dəstəkləyir. Biz bunu davam etdirəcəyik".



***Siyasi şərhçi, Azərbaycan Milli QHT Forumu İdarə Heyətinin üzvü Zaur İbrahimli mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki,*** Azərbaycan diplomatiyası Prezident İlham Əliyevin rəhbərliyi altında İkinci Qarabağ müharibəsində ölkəmizin tarixi Zəfərindən sonra diplomatik mübarizədə əhəmiyyətli qələbələrə imza atıb: "Çinin tanınmış diplomatlarından Çıjou Enlay deyirdi ki, bütün diplomatiya müharibənin başqa vasitələrlə davamıdır. Müasir beynəlxalq proseslər yüksək dinamika, sərt rəqabət, qarşıdurma, siyasi, iqtisadi və hüquqi amillərin çoxsəviyyəli qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur. Bu sərt rəqabət, qarşıdurma, yeni dünya nizamının formalaşması mərhələsində hər bir ölkənin beynəlxalq nüfuzu, diplomatik uğurları, beynəlxlaq arenada yeri, rolu milli maraqların qorunması, davamlı inkişaf, təhlükəsizliyinin təmin edilməsində ən mühüm amilə çevrilir".

Siyasi şərhçi qeyd etdi ki, əldə olunmuş uğurlar, diplotamatik qələbələr deməyə əsas verir ki, Azərbaycan tarixin bu çətin sınağından uğurla keçib. Dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün çağdaş qlobal proseslərdə, beynəlxalq gündəliyin formalaşmasında fəal iştirak edir, sabitlik və təhlükəsizlik ixrac edir. Güclü diplomatik mövqelərə malik olan ölkəmiz sülh təşəbbüsləri ilə Cənubi Qafqaz regionunun transformasiyasını həyata keçirir: "Bu strateji kurs Azərbaycanın gələcək onilliklər üçün iqtisadi dayanıqlılığını, müstəqil xarici siyasətini və beynəlxalq nüfuzunu sığortalayır. Bu kurs, həmçinin səriştəli, peşəkar diplomatiya ilə həyata keçirilir. Azərbaycanın beynəlalq nüfuzunun ən real göstəriciləri beynəlxalq təşkilatlarda, platformalarda təmsilçilik, diplomatik uğurlardır. Azərbaycan artıq 200-ə yaxın dövlətlə diplomatik münasibətlər qurub, dünyanın müxtəlif ölkələrində 90-dan çox diplomatik nümayəndəlik vasitəsilə təmsil olunur, 50-dən artıq beynəlxalq və regional təşkilatın tamhüquqlu üzvüdür".

Z.İbrahimli vurğuladı ki, bundan əvvəlki dövrdə Prezident İlham Əliyevin irəli sürdüyü "hücum diplomatiyası" doktrinası ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirdi, tarixi Zəfərdən sonra xarici siyasət, diplomatiyamız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpası, sülh gündəliyinin inkişaf etdirilməsi, regionumuzun yeni reallıqlarının tanınması istiqamətində yüksək məharət nümayiş etdirdi. Artıq Azərbaycanın sülh diplomatiyası çağdaş dövrümüzün ən uğurlu nümunələrindən biri kimi öyrənilir: "Azərbaycan diplomatiyası bu gün praqmatik, qlobal miqyasda, regionda baş verən geosiyasi proseslərin, beynəlxalq münasibətlərin transformasiyasının, əsas trendlərin dərin təhlilinə əsaslanan peşəkarlıqla güclü reputasiya qazanıb. Azərbaycan diplomatiyasının reputasiyası, peşəkarlığı Azərbaycanın xarici siyasətinin əsas vəzifələrini- balanslaşdırılmış və çoxtərəfli tərəfdaşlığa söykənən xarici siyasət kursunun davam etdirilməsinə, həm Qərb, həm də Şərq qütbləri ilə münasibətlərini paralel, səmərəli şəkildə inkişaf etdirməsinə, Türk Dövlətləri Təşkilatı coğrafiyasında inteqrasiyanın sürətləndirilməsinə, Cənubi Qafqazın sülh gündəliyi ilə transformasiyası kimi strateji məqsədlərə nail olunmasına əhəmiyyətli töhfə verir".

✍ **Zahid Rza,**
***"İki sahil"***

TƏSİSÇİ: SOCAR

Baş redaktor:
**Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: ***İsmayıl Hacıyev***
Baş redaktorun müavini: ***Anar Miriyev***
Baş redaktorun müavini: ***Rəşad Bağırov***

Bakı: Kapital Bankın Port Baku filialı H/hesab
№AZ19AIIB38030019443700306107
**Kod №** 201973 / **VÖEN:** 2000157291

Qəzetdə ***"AZƏRTAC"***, ***"Trend"***, ***Report***, ***SİA***, ***"OLAYLAR"*** informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:**
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb:
08.07.2026-cı il saat 01:00
*Qiyməti:* **1 manat,** *Sayı:* **5913**
*İndeks:* **0151,** *Sifariş:* **850**

TƏHLİL

# Orta Dəhliz: Dəyişən dünya nizamının yeni arteriyası

## BU LAYİHƏDƏ İŞTİRAK EDƏN DÖVLƏTLƏRİN MARAQLARININ ÜST-ÜSTƏ DÜŞMƏSİ REGİONAL İNTEQRASİYANI SÜRƏTLƏNDİRİR VƏ YENİ DÜNYA NİZAMINDA BU XƏTT ÜZƏRİNDƏ YERLƏŞƏN ÖLKƏLƏRİN ÇƏKİSİNİ ARTIRIR

**Müasir beynəlxalq münasibətlər sistemində baş verən geosiyasi dəyişikliklər dünya ticarət marşrutlarının və logistika xətlərinin yenidən formalaşmasına səbəb olur. Xüsusilə Rusiya-Ukrayna müharibəsi, İran-ABŞ qarşıdurması və Çinin qlobal bazarlara daha geniş çıxış strategiyası fonunda Orta Dəhlizin əhəmiyyəti kəskin şəkildə artıb. Bu iki əsas geosiyasi risk zonası arasında yerləşən Orta Dəhliz daha stabil və təhlükəsiz alternativ kimi ön plana çıxır.**




Orta Dəhliz Çindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan mühüm nəqliyyat arteriyasıdır. Bu marşrut həm quru, həm də dəniz komponentlərini özündə birləşdirir və çoxşaxəli logistika imkanları yaradır. Geosiyasi risklərin nisbətən az, marşrutun daha qısa və çevik olması, alternativ nəqliyyat imkanlarının mövcudluğu, regional əməkdaşlığın güclənməsi bu dəhlizin üstünlükləridir. Çin qlobal iqtisadiyyatın əsas aktorlarından biri kimi "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yeni bazarlara çıxışı genişləndirməyə çalışır. Şimal və Cənub marşrutlarında yaranan problemlər Çini Orta Dəhlizə daha çox investisiya yatırmağa və bu marşrutdan istifadəni artırmağa sövq edir. Bu isə Orta Dəhliz ölkələri üçün əlavə iqtisadi dividendlər və tranzit gəlirləri deməkdir.

Orta Dəhlizdə Azərbaycanın rolu xüsusilə strategidir. Ölkə coğrafi mövqeyi baxımından Şərq ilə Qərbi birləşdirən əsas körpüdür. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu kimi layihələr ölkəmizin bu dəhlizdəki rolunu daha da gücləndirir. Orta Dəhlizin mühüm seqmentlərindən olan BTQ-nin imkanlarının artırılması məqsədilə həyata keçirilən modernləşdirmə işlərinin nəticəsində bu xəttin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Beləliklə, bu xətt Çin və Mərkəzi Asiyadan Avropaya doğru daha funksional quru yol marşrutlarından birinə çevrilib. Bu isə BTQ-nin qlobal ticarətdəki rolunun əhəmiyyətli dərəcədə artması deməkdir. İndi texnoloji baxımdan tam şəkildə müasirləşdirilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropa ilə Asiyanı bir-birinə daha da yaxınlaşdıracaq və regionumuzun qlobal ticarət-logistika şəbəkəsində strateji əhəmiyyətini artıracaq. BTQ dəmir yolu xəttinin modernləşdirilib tam gücü ilə istifadəyə verilməsi həm Azərbaycan üzərindən beynəlxalq yükdaşımalarının artmasına və Orta Dəhliz boyunca yük axınının çoxalmasına ciddi təsir göstərəcək, həm də paralel olaraq, Azərbaycan iqtisadiyyatının inkişafı baxımından yeni imkanlar yaradacaq. Yükdaşıma ilə yanaşı, həm də sərnişindaşıma üçün nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolunun bir başqa üstünlüyü isə ondadır ki, artıq Bakıdan və Tbilisidən birbaşa Türkiyəyə sərnişinlərin rahat gediş-gəlişi də reallığa çevriləcək. Eləcə də Azərbaycan, Türkiyə və Gürcüstan vətəndaşları ilə yanaşı, həmçinin xarici turistlər də bu dəmir yolu xəttinin imkanlarından rahat şəkildə istifadə edə biləcəklər. Bu isə regionda turizmin inkişafına əlavə töhfə verəcək. Bütün bunlar onu göstərir ki, Azərbaycanın təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi düzgün strateji qərardır.

Orta Dəhlizin artan əhəmiyyətinin konkret statistik göstəricilərinə nəzər salaq. Qazaxıstan Nəqliyyat Nazirliyinin məlumatına görə, son 7 ildə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) boyunca daşımaların həcmi 0,8 milyon tondan 4,5 milyon tona qədər yüksəlib. Son statistik hesabatlara görə, 2025-ci ildə sırf Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu boyunca təxminən 77 min TEU (Twenty-foot Equivalent Unit, dəniz və dəmir yolu nəqliyyatında istifadə olunan standart konteyner tutumu ölçü vahidi) daşınıb. Hədəf isə daha iddialıdır - 2029-cu ilə qədər konteyner daşımalarının 300 min TEU-ya çatdırılması planlaşdırılır. "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin məlumatına görə isə ümumiyyətlə, Bakı Beynəlxalq Dəniz Limanının tarixində ilk dəfə illik konteyner aşırma həcmi 107 min TEU səviyyəsinə çatıb. Bu rəqəmə həm Orta Dəhliz ilə daşınan yüklər, həm də digər marşrutlar üzrə daşımalar daxildir. Bu göstəricini idarəetmə və inteqrasiya baxımından dönüş nöqtəsi kimi qəbul etmək olar.

Xatırladaq ki, Prezident İlham Əliyevin 25 fevral 2025-ci il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Dəniz Limanının ADY-yə inteqrasiyası yükaşırma proseslərinin sürətlənməsinə və logistik marşrutların optimallaşdırılmasına imkan yaradıb. Artıq bu inteqrasiya real nəticələr verib. Yükaşırma göstəricilərinin artması Bakı Beynəlxalq Dəniz Limanının regionun ən etibarlı logistik qovşaqlarından biri kimi mövqeyini daha da möhkəmləndirir. Bu isə öz növbəsində Azərbaycanın Şərqlə Qərb arasında əsas tranzit mərkəzlərdən birinə çevrilməsi prosesini sürətləndirir. Xüsusilə diqqətçəkən məqam odur ki, limanda tətbiq olunan yaşıl və rəqəmsal logistik həllər Orta Dəhliz üzrə inteqrasiyanı dərinləşdirərək həm yük həcmlərinin artımını, həm də iqtisadiyyat üçün daha yüksək əlavə dəyərin formalaşmasını vəd edir. Müqayisə üçün bildirək ki, liman 2018-ci ildə istifadəyə verilərkən onun illik yükaşırma gücü 15 milyon ton və 100 min TEU konteyner səviyyəsində idi. Lakin ADY-yə inteqrasiyadan sonra həyata keçirilən operativ layihələr nəticəsində bu potensial qısa müddətdə 150 min TEU ekvivalentinə çatdırılıb.

Hazırda dəhlizin əsas kommersiya yükü Çin və Mərkəzi Asiyadan Avropaya yönələn axın üzərində qurulub. Lakin artıq "əks istiqamət"in - Qərbdən Şərqə daşımaların artırılması istiqamətində də konkret addımlar atılır. 2024-cü ilin noyabrında Bakı-Sian ixrac blok qatarının yola salınması bu baxımdan simvolik dönüş nöqtəsi sayılır. 2024-cü ilin mayında Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi isə marşrutun elastikliyini artıraraq iki istiqamətli ticarət üçün yeni imkanlar açır. Avropa, o cümlədən Avstriya şirkətlərinin bu xəttə maraq göstərməsi də Orta Dəhlizin qlobal oyunçuya çevrildiyini sübut edir.

**Sevinc Azadi,**
***"İki sahil"***

RƏQƏMSAL TƏHLÜKƏSİZLİK

# Rəqəmsal asılılıqdan kibertəzyiqə




**Uşaqların internetdən istifadəsi son illərdə nəzərəçarpacaq dərəcədə artıb. Təhsil platformalarından sosial şəbəkələrə, onlayn oyunlardan süni intellekt əsaslı tətbiqlərə qədər rəqəmsal xidmətlər artıq azyaşlıların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib.**

Bunun fonunda dünyanın müxtəlif ölkələrində uşaqların rəqəmsal təhlükəsizliyinin gücləndirilməsi, platformaların məsuliyyətinin artırılması və yaşa uyğun istifadə qaydalarının sərtləşdirilməsi istiqamətində müzakirələr genişlənir. Texnologiyaların sürətli inkişafı uşaqların hüquq və təhlükəsizliyinin qorunması üçün yeni yanaşmaların formalaşdırılmasını zəruri edir. Mütəxəssislər uşaqların virtual aləmdə təhlükəsizliyinin təmin olunmasının artıq yalnız ailələrin deyil, dövlət qurumlarının, təhsil müəssisələrinin və rəqəmsal platformaların da birgə məsuliyyəti olduğunu vurğulayırlar.

Azərbaycan da bu məsələ ilə bağlı hüquqi tənzimləmələri gücləndirən ölkələr arasındadır. Belə ki, artıq azyaşlılar sosial media platformalarında özlərinə hesab yaratmağa çalışdıqda onlara yaş yoxlanılması mexanizminin tətbiq olunması nəzərdə tutulur. 16 yaşına çatmamış uşaqların sosial şəbəkələrə çıxışını məhdudlaşdıran yeni qanunvericilik dəyişikliklərinin uşaqların həm psixoloji, həm də fiziki inkişafına dəstək olacağı gözlənilir.

Son illər kibertəzyiq, şəxsi məlumatların oğurlanması, zərərli və ya hər yaş qrupuna uyğun olmayan məzmunun yayılması, rəqəmsal asılılıq və oyun platformalarında naməlum şəxslərlə ünsiyyət kimi problemlər dünyanın bir çox ölkələrində ciddi narahatlıq doğurur. Xüsusilə onlayn oyun platformaları uşaqların ən çox vaxt keçirdikləri rəqəmsal məkanlardan birinə çevrilib. Bir çox oyunlarda istifadəçilərin səsli və yazılı söhbət imkanları, canlı ünsiyyət funksiyaları və oyun daxilində ödəniş sistemləri mövcuddur. Xatırladaq ki, kifayət qədər nəzarət olmadıqda azyaşlılar bu platformalarda kibertəzyiq, fırıldaqçılıq, şəxsi məlumatların ələ keçirilməsi və psixoloji manipulyasiya halları ilə qarşılaşa bilərlər.

Bundan başqa, sosial şəbəkələrdə yayılan təhlükəli çağırışlar, yaşa uyğun olmayan məzmun, dezinformasiyalar, saxta hesablar və müxtəlif manipulyasiya üsulları da uşaqlar üçün ciddi risklər yaradır. Süni intellekt texnologiyalarının sürətli inkişafı ilə saxta foto, video və səs yazılarının hazırlanmasının asanlaşması isə rəqəmsal təhlükələrin miqyasını daha da genişləndirir.

***Media eksperti Səbinə İzzətli mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki,*** rəqəmsal mühit uşaqların inkişafına müsbət təsir göstərən, onlara geniş təhsil, ünsiyyət və informasiya imkanları yaradan mühüm platformadır. Lakin bu imkanlarla yanaşı, uşaqların qarşılaşa biləcəkləri ciddi risklər də mövcuddur. Bu risklər sırasında kibertəzyiq, zərərli məzmun, onlayn istismar cəhdləri və digər rəqəmsal təhlükələr xüsusi yer tutur. Bu reallığı nəzərə almamaq mümkün deyil: "Məhz buna görə də sosial şəbəkələrdə yaş məhdudiyyətinin tətbiqi tamamilə normal və əsaslandırılmış yanaşmadır. Dünya təcrübəsi də bunu təsdiqləyir. Artıq bir sıra ölkələrdə sosial platformalardan istifadə üçün minimum yaş həddi artırılıb və bəzi hallarda 16 yaşdan aşağı istifadəçilər üçün məhdudiyyətlər tətbiq olunur.

Hesab edirəm ki, bu məsələ Azərbaycan qanunvericiliyində də ciddi nəzarət altında saxlanılmalıdır. Bununla yanaşı, təkcə texniki məhdudiyyətlərin tətbiqi kifayət etmir. Bu prosesdə valideynlərin də rolu olduqca vacibdir. Valideynlər azyaşlı övladlarının internetdən və sosial şəbəkələrdən istifadəsinə nəzarət etməli, onların hansı məzmunu izlədiklərini və hansı platformalarda aktiv olduqlarını mütəmadi olaraq diqqətdə saxlamalıdırlar. Eyni zamanda, qanunvericilikdə uşaqların rəqəmsal mühitdə üzləşə biləcəkləri təhlükələrin qarşısının alınması üçün effektiv hüquqi və texniki mexanizmlər nəzərdə tutulmalıdır. Bu baxımdan düşünürəm ki, sosial şəbəkələrdə yaş məhdudiyyətinin tətbiqi həm zəruri, həm də qaçılmaz addımdır və uşaqların təhlükəsizliyinin təmin olunmasına xidmət edir".

**Şahnigar Əhmədova,**
***"İki sahil"***

HÜQUQİ TƏNZİMLƏMƏ

# Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması vacibdir

**Rəqəmsal texnologiyaların sürətli inkişafı həyatın bütün sahələrində olduğu kimi, uşaqların gündəlik həyatına da ciddi təsir göstərib. Sosial şəbəkələr ünsiyyət, məlumat mübadiləsi və yaradıcılıq üçün geniş imkanlar yaratsa da, eyni zamanda, özü ilə kibertəhdidlər, psixoloji asılılıq, zərərli məzmun, kiberzorakılıq və manipulyativ alqoritmlər kimi riskləri də gətirib. Son illər dünyanın müxtəlif ölkələrində bu risklərin azaldılması istiqamətində hüquqi mexanizmlərin yaradılması sürətlənib. Azərbaycan da bu istiqamətdə yeni mərhələyə qədəm qoyur.**




Milli Məclisdə üçüncü oxunuşda qəbul edilən qanunvericilik dəyişiklikləri sosial şəbəkələrin fəaliyyətini məhdudlaşdırmaq deyil, uşaqların rəqəmsal mühitdə daha etibarlı şəkildə qorunmasını təmin etmək məqsədi daşıyır. Yeni tənzimləmə ilə 16 yaşına qədər uşaqların müəyyən ediləcək sosial şəbəkə platformalarında müstəqil hesab yaratmasına yol verilməyəcək. 16-18 yaş aralığında olan yeniyetmələr isə valideynin razılığı əsasında qeydiyyatdan keçə biləcəklər. Bunun əsas məqsədi uşaqları yetkinlik yaşına çatana qədər onların psixoloji, emosional və fiziki inkişafına mənfi təsir göstərə biləcək rəqəmsal mühitdən qorumaqdır.

Bu dəyişikliklərə "Sosial şəbəkələrə qadağa" və ya "Uşaqların hüquqlarının məhdudlaşdırılması" kimi yanaşmaq düzgün olmazdı. Əslində, söhbət sosial şəbəkələrdə qeydiyyat zamanı yaşın təsdiqlənməsi mexanizminin tətbiqindən və platformaların uşaqların təhlükəsizliyi istiqamətində məsuliyyətinin artırılmasından gedir. Məqsəd uşaqların informasiya əldə etmək hüququnu məhdudlaşdırmaq deyil, onların yaş xüsusiyyətlərinə uyğun olmayan rəqəmsal təsirlərdən müdafiəsini gücləndirməkdir.

### YENİ TƏNZİMLƏMƏ ƏVVƏLKİ HÜQUQİ BAZANIN DAVAMIDIR

Bu yanaşma hüquqi baxımdan da yeni deyil. Cəmiyyət artıq uzun illərdir ki, uşaqların sağlam inkişafını təmin etmək üçün müxtəlif yaş məhdudiyyətlərini normal qəbul edir. Bu kimi tədbirlər heç vaxt hüquqların məhdudlaşdırılması kimi deyil, uşaqların sağlamlığı və rifahının qorunması mexanizmi kimi qiymətləndirilib. Rəqəmsal dövrdə sosial şəbəkələrin də eyni yanaşma ilə tənzimlənməsi beynəlxalq praktikada getdikcə daha geniş qəbul olunur.

Azərbaycanda bu istiqamətdə hüquqi baza əslində artıq formalaşdırılıb. 2018-ci ildə qəbul edilən "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun təmin olunmasını və onların zərərli informasiyadan müdafiəsini nəzərdə tutur. Hazırkı dəyişikliklər həmin qanunun məntiqi davamı olmaqla, sosial şəbəkələrin sürətlə inkişaf etdiyi yeni rəqəmsal reallığa uyğun tənzimləmə mexanizmləri yaradır.

Qanunun qəbulundan sonra onun dərhal tətbiq edilməməsi də diqqət çəkən məqamlardandır. Qanunun qüvvəyə minməsi üçün 12 aylıq keçid dövrü nəzərdə tutulur. Bu müddət ərzində yaş yoxlanılması tətbiq olunacaq sosial şəbəkə platformalarının siyahısı müəyyən ediləcək, texniki həllər hazırlanacaq, maarifləndirmə kampaniyaları təşkil olunacaq və valideynlər, uşaqlar, təhsil müəssisələri üçün məlumatlandırma işləri aparılacaq. Beləliklə, yeni sistem mərhələli şəkildə formalaşdırılacaq.

### ÖLKƏMİZ QLOBAL TENDENSİYANIN BİR HİSSƏSİNƏ ÇEVRİLİR

Yeri gəlmişkən vurğulayaq ki, bu yanaşmada Azərbaycan tək deyil. Dünyanın bir çox ölkəsində sosial şəbəkələrin uşaqlara təsiri ilə bağlı ciddi narahatlıqlar mövcuddur və müxtəlif hüquqi mexanizmlər hazırlanır. Avstraliya 2025-ci ilin dekabrında bu sahədə qanun qəbul edən ilk ölkələrdən biri olub. Fransa isə 2026-cı ilin ilk rübündə Avropada sosial şəbəkələrdə yaş məhdudiyyətini qanunvericilik səviyyəsində tətbiq edən ilk dövlət kimi çıxış edib.

Hazırda Danimarkada 18 yaş, İspaniyada 16 yaş, Fransada 15 yaş həddi ilə bağlı müxtəlif hüquqi mexanizmlər müzakirə olunur və ya tətbiq edilir. ABŞ-da federal səviyyədə 17 yaşla bağlı təşəbbüslər irəli sürülür, ayrı-ayrı ştatlarda isə fərqli yaş hədləri müəyyənləşdirilir. Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yutada 18 yaş, Kolorado, Corciya və Luizianada 16 yaş, Floridada isə 14 yaş həddi ilə bağlı yanaşmalar mövcuddur. Böyük Britaniyanın "Online Safety Act", İrlandiyanın "Online Safety Code" sənədləri də uşaqların internet təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.

Almaniya, Norveç, Portuqaliya, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan da sosial media platformalarında yaş məhdudiyyətləri ilə bağlı hüquqi qərarlar qəbul edib və ya belə dəyişikliklər üzərində işləyir. Norveç hökuməti 2026-cı ilin sonuna qədər yeni yaş məhdudiyyətlərini tətbiq etməyi planlaşdırır. Azərbaycanla yanaşı, digər postsovet respublikaları qonşuları olan Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüslərinin gündəmdə olması göstərir ki, region ölkələri də bu məsələyə xüsusi diqqət yetirirlər.

### DÜNYA LİDERLƏRİ EYNİ TƏHLÜKƏYƏ DİQQƏT ÇƏKİRLƏR

Mövzunun aktuallığı dünya liderlərinin çıxışlarında da öz əksini tapır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial media platformalarının uşaqların düşüncə tərzinə mənfi təsir göstərdiyini, manipulyativ alqoritmlərin isə problemi daha da dərinləşdirdiyini vurğulayaraq bu platformaları "rəqəmsal zibilxanalar" kimi xarakterizə edib. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen isə diqqəti fərqli məqama yönəldərək bildirib ki, əsas məsələ gənclərin sosial mediaya çıxışının olub-olmaması deyil, sosial medianın gənclərə nə dərəcədə çıxış imkanına malik olmasıdır.

Norveçin Baş naziri Jonas Gahr Store hesab edir ki, uşaqların uşaqlığını alqoritmlər və ekranlar deyil, oyun, dostluq və real həyat formalaşdırmalıdır. İspaniyanın Baş naziri Pedro Sançez isə real həyatda qanunsuz olan davranışların virtual məkanda da qanuni hesab edilə bilməyəcəyini bildirərək rəqəmsal platformaların da eyni hüquqi məsuliyyət daşımalı olduğunu vurğulayıb. Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis də 15 yaşdan aşağı uşaqların sosial şəbəkələrə girişinin məhdudlaşdırılacağını açıqlayıb.

Bütün bunlar göstərir ki, sosial şəbəkələrdə yaş yoxlanılması artıq ayrı-ayrı ölkələrin lokal təşəbbüsü deyil, qlobal rəqəmsal təhlükəsizlik siyasətinin mühüm istiqamətlərindən birinə çevrilir. Azərbaycanda qəbul edilən dəyişikliklər də məhz bu beynəlxalq tendensiyanın tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Məsələyə daha geniş prizmadan baxdıqda isə görünür ki, burada söhbət təkcə hüquqi tənzimləmədən getmir. Bu addımlar ailənin, cəmiyyətin və dövlətin uşaqların sağlam gələcəyi naminə üzərinə düşən məsuliyyətin paylaşılması deməkdir. Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması onların psixoloji sağlamlığının qorunmasına, tənqidi düşüncə bacarıqlarının formalaşmasına, sosial münasibətlərinin düzgün inkişafına və gələcəkdə rəqəmsal platformalardan daha məsuliyyətli istifadə etmələrinə xidmət edir. Məhz bu baxımdan sosial şəbəkələrdə yaş yoxlanılması müasir dövrün çağırışlarına uyğun formalaşdırılan sosial müdafiə mexanizmi kimi qiymətləndirilə bilər.

**Nigar Orucova,**
***"İki sahil"***